# QİYAMƏT ƏLAMƏTLƏRİ

Onlar ancaq o saatın qəfildən başlarının üstünü
almasınımı gözləyirlər? Onun əlamətləri
artıq gəlmişdir. (Muhəmməd, 18)

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

## İÇİNDƏKİLƏR:

**Giriş**

**QURANDA QİYAMƏT ƏLAMƏTLƏRİ**
Qiyamət saatı yaxındır
Quran əxlaqının bütün dünyaya anladılması
Elçilər
İslam əxlaqının dünyaya hakim olması
Hz. İsanın yer üzünə dönüşü
Ayın yarılması

**HƏDİSLƏRDƏ QİYAMƏT ƏLAMƏTLƏRİ**
Müharibələr və anarxiya
Böyük şəhərlərin yox olması: müharibə və fəlakətlər
Zəlzələlər
Yoxsulluq
Əxlaqi tənəzzül
Haqq dinin və Quran əxlaqının tərk edilməsi
Sosial tənəzzül
Elm və texnologiya
Hz. İsa və saxta peyğəmbərlər
Qızıl Əsr
Qızıl Əsrdən sonra

**NƏTİCƏ**

**ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI**

## OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allah`ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar

Allah`ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah`ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allah`ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

**www.harunyahya.org www.harunyahya.net www.adnanoktar.az www.a9.com.tr**

## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından

götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah`ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah`ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah`ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq

olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah`ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

## GİRİŞ

Tarix boyu insanların əksəriyyəti dağların heybətli quruluşuna, ulduzların və Günəşin böyüklüyünə öz ibtidai qavrayışına uyğun olaraq məna vermiş və kainatın sonsuzluğa qədər mövcud olacağına inanmışdı. Onların bu inancı çoxtanrılı və maddiyyatçı yunan fəlsəfələrinin, Şumer və Misir dinlərinin onurğa sütununu təşkil etmişdir.

Bu cür düşünən insanların necə yanıldıqlarını bizə Quran xəbər vermişdir. Allah`ın Quranda bildirdiyi xəbərlərdən biri də kainatın yaradılması və onun sonunun da olacağı həqiqəti ilə bağlıdır. Bütün insanlar və canlılar kimi, kainatın da ölümü olacaq. Milyardlarla ildir qüsursuz işləyən bu nizam hər şeyi yaradan Rəbbimizin əsəridir. Bu nizam Onun əmri ilə və Onun müəyyən etdiyi bir vaxtda möhtəşəm formada bitəcək.

Kainatın mikroorqanizmlərdən insanlara qədər içindəki bütün canlılar, ulduzlar və qalaktikalarla birlikdə aradan qaldırılacağı an ayələrdə "saat" kəlməsi ilə ifadə edilir. Bu "saat" bizim bildiyimiz saat deyil, Quranda "qiyamət vaxtı" mənasında işlədilən müəyyən və xüsusi bir saatdır.

Quranda qiyamət saatının gələcəyi xəbəri ilə yanaşı, həmin vaxt baş verəcək hadisələr də bütün mərhələləri ilə müfəssəl surətdə təsvir edilib: "Göy yarılıb parçalandığı zaman", "Dənizlər qaynayıb bir-birinə qarışacağı zaman", "Dağlar yerindən qopardılacağı zaman", "Günəş sarınıb-büküləcəyi zaman"…

İnsanların bu dəhşətli müsibətlərdən qorxması, təlaşı və çaşqınlığı, qaçıb gizlənəcək heç bir yerin olmayacağı da ayələrdə müfəssəl şəkildə qeyd edilmişdir. Buradan da qiyamətin kainat tarixində bənzəri olmamış çox böyük müsibət olacağı nəticəsinə gəlirik.

"Qiyamət günü" və "Ölüm, qiyamət, cəhənnəm" adlı kitablarımızda qiyamət günü ilə bağlı ətraflı məlumat var. Əlinizdəki kitab isə qiyamət gününün yaxınlaşacağı vaxt baş verəcəyi xəbər verilən hadisələrdən bəhs edir. Bunu xüsusilə bildirməliyik ki, kainatı

gözləyən nəticənin hər dövrdə diqqətəlayiq bir mövzu olması ayələrdən də məlumdur. Quranda insanların Peyğəmbərimizdən (s.ə.v) qiyamət saatının nə vaxt gələcəyini soruşması belə xəbər verilir:

**“Səndən saat (qiyamət) haqqında soruşurlar ki, nə vaxt qopacaq” (“Əraf”, 7/187).**

**“Səndən qiyamətin nə zaman qopacağı barədə soruşurlar” (“Naziat”, 79/42).**

Peyğəmbərimizə (s.ə.v) bu cür sual verənlərə: “O, ancaq Rəbbimə məlumdur” (“Əraf”, 7/187) - şəklində cavab verməsini Allah əmr etmişdir. Bununla da qiyamətin nə vaxt qopacağını ancaq Allah`ın bildiyini ifadə etmişdir. Qiyamətin nə vaxt qopacağını heç kim bilə bilməz, lakin Peyğəmbərimizin (s.ə.v) hədislərinə və Quranda yer alan işarələrə baxıb əsr olaraq qiyamətin nə zaman qopacağına dair təxminlər əldə etmək olar. Belə demək mümkündür ki, qiyamətin qopacağı zaman iman edən heç kimsə qalmayacaq və küfr yer üzünə tam hakim olacaqdır. Necə ki, böyük İslam alimi Bərzənci və Suyuti həzrətləri Peyğəmbərimizin (s.ə.v) hədislərinə əsaslanıb ümmətin ömrünün hicri 1500-ü keçməyəcəyini bildirirlər. Bədiüzzaman Səid Nursi həzrətləri də yenə hədislərdəki bilgilərə görə, müsəlmanların hicri 1506-cı illərə qədər uca Allah`ın haqq üzərində qalibanə olaraq davam edəcəklərini, hicri 1545 (miladi 2120) tarixində isə qiyamətin qopacağını ifadə etmişdir.

Bundan başqa, qeyd etmək lazımdır ki, qiyamət saatı haqqında bilgi verən bir çox ayə mövcuddur. Mövzu ilə əlaqədar digər ayələri araşdırdığımızda əhəmiyyətli bir həqiqətlə qarşılaşırıq. Quranda qiyamət üçün bir tarix açıqlanmamışdır, fəqət qiyamət öncəsində ortaya çıxan əlamətlər xəbər verilir. Bir ayədə qiyamətin bir çox işarəsinin olduğunu Allah bizə belə bildirir:

**Onlar ancaq o saatın qəfildən başlarının üstünü almasınımı gözləyirlər? Onun əlamətləri artıq gəlmişdir. (Qiyamət saatı) onlara gəlib yetişdiyi zaman ibrət almaları onlara nə fayda verər?! (Muhəmməd, 47/18)**

Bu ayədə xüsusilə gələcəyi bildirilən qiyamətin əlamətlərinin Quranda xəbər verildiyi başa düşülür. Bu böyük xəbərin əlamətlərini başa düşmək üçün ayələrin üstündə fikirləşmək lazımdır. Əks təqdirdə, ayədə bildirildiyi kimi, qiyamət vaxtı gələndən sonra fikirləşməyin heç bir xeyri olmayacaq.

Peyğəmbərimizin (s.ə.v) günümüzə qədər gəlib çatan sözlərinin, yəni hədislərinin bir hissəsi qiyamətin əlamətləri haqqındadır. Peyğəmbərimiz (s.ə.v) hədislərində həm qiyamətin əlamətləri, həm də qiyamətdən əvvəlki dövrlə bağlı ətraflı məlumatlar vermişdir. Qiyamət əlamətlərinin meydana çıxacağı bu dövr İslam mənbələrində axırzaman (son dövr) şəklində adlandırılmışdır. Axırzaman və qiyamət əlamətləri kimi mövzular İslam tarixində çox böyük marağa səbəb olmuş, İslam alimlərinin və tədqiqatçılarının əsərlərinin əsas mövzularından birini təşkil etmişdir.

Uca Allah Quranda İslam əxlaqını yer üzünə hakim edəcəyini bildirmişdir. Peyğəmbərimiz (s.ə.v) də hədislərində bu böyük və mübarək hadisəyə axırzamanda hz. Mehdinin vəsilə olacağını xəbər vermişdir. Quran əxlaqı gərəyi və Peyğəmbərimizin (s.ə.v)

bildirdiyi kimi, İslam əxlaqının hakimiyyəti sevgi ilə olacaqdır. İslam əxlaqının hakim olması ilə yer üzü hüzur və güvənliyə qovuşacaq, bütün qarışıqlıq, anarxiya və terror hadisələri sona çatacaqdır. Axırzamanın fitnə və zülmlərindən cana yığılan insanlar İslam əxlaqını yer üzünə hakim edən hz. Mehdinin (ə.s) ədalətindən, comərdliyindən mərhəmət və sevgisindən razı olacaqlar.

Axırzamanda hz. Mehdinin (ə.s), Allah`ın izni ilə, mütləq zühur edəcəyi Peyğəmbərimizin (s.ə.v) hədisi-şəriflərində belə müjdələnmişdir:

"Dünyada tək bir gün qalsa belə, (qiyamət qopmadan) Allah o günü uzadacaq, adı adıma, atasının adı da atamın adına uyğun, əhli-beytimdən mütləq bir şəxs (hz. Mehdi) gələcək, daha öncə zülm və haqsızlıqla dolu olan yer üzünü ədalət və insafla dolduracaq". (Əbu Davud və Tirmizi; Böyük hədis külliyyatı, Rudani, cild 5, səh. 365)

Hədislərdə bildirildiyinə görə, hz. Mehdi (ə.s) axırzamanda zühur edəcək və İslam əxlaqını yer üzünə hakim edəcək. Hz. Mehdinin (ə.s) zühur etməsi ilə yer üzündəki bütün zülm və haqsızlıqlar sona çatacaq. Dünyaya ədalət, sülh, sevgi və hüzur hakim olacaq. Bu hadisələr bəzi hədislərdə belə xəbər verilir:

"...Bu Əmir (hz. Mehdi (ə.s)) insanlar yer üzünü daha öncə zülmlə doldurduqları kimi, yer üzünü ədalətlə dolduracaqdır. Artıq sizdən kim o günə çatarsa, qar üstündə sürünməklə də olsa, onlara qoşulsun". (Sünəni-İbni Macə, "Kitabül-fitən")

"Hz. Peyğəmbər (s.ə.v) ən başda İslamı necə ayaqda tutdusa, hz. Mehdi də (s.ə) ən sonda eyni şəkildə İslamı ayaqda tutacaqdır". (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 26)

Bütün bu məlumatları bir yerə yığanda çox zəruri bir nəticə ilə qarşılaşırıq. Ayə və hədislər axırzamanın iki mərhələli olduğunu göstərir. Birinci mərhələ dünyanın maddi və mənəvi problemlərlə dolu olduğu bir dövrdür. Bundan sonra gələcək ikinci dövr isə "Qızıl Əsr" adlandırılan Quran əxlaqının və hər sahədə yüksək rifahın yaşanacağı bir dövrdür. Dünyanın Qızıl Əsrin qurtarması ilə yanaşı, çox sürətlə sosial tənəzzülə girməsi ilə də qiyamət saatının gələcəyi gözlənilir.

Oxuduğunuz kitabın məqsədi də qiyamət əlamətlərini ayə və hədislərin işığında incələmək, bu əlamətlərin bir-bir, təsvir edildiyi kimi içində yaşadığımız əsrdə ortaya çıxmağa başladığını göstərməkdir. On dörd əsr əvvəl bildirilən əlamətlərin zühur etməsi insanların Allah`a olan imanını və bağlılığını artıran çox böyük hadisələrdir. Sonrakı səhifələrdəki qeydlərimiz də Rəbbimizin "Və de ki: "Həmd olsun Allah`a! O, öz ayələrini sizə göstərəcək, siz də onları görüb tanıyacaqsınız"" ("Nəml", 27/93) vədinə uyğun olaraq hazırlanmışdır.

Xüsusi olaraq bildirmək istədiyimiz zəruri bir məsələ də budur ki, hər şeyin ən doğrusunu Allah bilir. Hər məsələdə olduğu kimi, qiyamət haqqında da Onun bizə öyrətdiyindən başqa heç bir məlumatımız yoxdur.

**Peyğəmbərimizin (s.ə.v) hədislərində bildirilən əlamətlər bu əsrdə gerçəkləşmişdir.**

Peyğəmbərimiz (s.ə.v) hədislərindən birində hz. Mehdinin (ə.s) hicri 1400-cü ildə zühur edəcəyini müjdələmişdir:

"İnsanlar 1400-cü ildə hz. Mehdinin ətrafında toplaşacaqlar". (Risalətül-xürucul-Mehdi, səh. 108)

Eyni zamanda, son min ilin ən böyük İslam alimi ustad Səid Nursi həzrətləri də öz külliyyatında hz. Mehdinin (ə.s.) hicri 1400-cü ildən fəaliyyətdə olacağını bildirmişdir:

"İstiqbali-dünyəviyyədə (dünyanın gələcəyində) 1400 il sonra gələcək bir həqiqəti əsrlərində karib (yaxın) zənn etmişlər". (Sözlər, səh. 318)

Həqiqətən də, hicri 1400-cü ildən etibarən peyğəmbərimizin (s.ə.v) bildirdiyi bütün axırzaman əlamətləri möcüzəvi şəkildə bir-birinin ardınca baş vermişdir.

Peyğəmbərimizdən (s.ə.v) rəvayət edilən hədislərin əksəriyyəti böyük İslam alimi İmam Rəbbaninin məşhur "Məktubati-Rəbbani" əsərində, eyni zamanda, əhli-sünnənin hədis ədəbiyyatında ən etibarlı hədis kitabları kimi qəbul edilən altı kitabda (Kutubi-siddədə) yerləşir. Ustad Səid Nursi həzrətləri də hicri 1327-ci ildə Şamdakı Əməvi məscidində on min insana verdiyi xütbəsində (Xütbeyi-Şamiyədə) və "Barla lahiqəsi", "Kastamonu lahiqəsi" və "Şüalar"da hz. Mehdinin (ə.s) hicri 1400-cü ildə zühur edəcəyini dəfələrlə açıq şəkildə bildirmişdir.

Eyni zamanda, Peyğəmbərimizin (s.ə.v) hədislərində, İmam Rəbbani, Cəlaləddin Suyuti, Əhməd ibn Hənbəl, Ustad Səid Nursi həzrətləri kimi böyük İslam alimlərinin əsərlərində İslam ümmətinin ömrünün hicri 1500-cü illərə qədər davam edəcəyi də bildirilmişdir:

"Mənim ümmətimin ömrü 1500 ili heç keçməyəcək". (Suyuti, Əl-kəşfu ən mücavəzəti-həzihil-ümməti əl-əlfu, Əlhavi lil fətavi, Suyuti. 2/248, Təfsiri-ruhul-bəyan. Bursəvi, (Ərəbcə) 4/262,Əhməd bin Hənbəl, Kitabül-iləl, səh. 89)

İmam Suyuti Peyğəmbərimizin (s.ə.v) hədislərində ümmətin ömrünün 1500 ili keçməyəcəyini bildirdiyini demişdir:

"Bu ümmətin ömrü 1000 ili keçəcək, fəqət 1500 ili keçməyəcək". (Qiyamət əlamətləri, səh. 299) (Cəlaləddin Suyutinin "Əl-kəşfu fi mücazəvəti-həzin əl-ümməti əl əlfə əlləzi dellət əleyh əl-asar" adlı kitabından nəql)

Səid Nursi həzrətləri ümmətin ömrünün hicri 1506-cı ilə qədər olacağını xəbər vermişdir:

"...Birinci cümlə min beş yüz (1500) məqamı ilə axırzamanda bir taifeyi-mücahidinin (din üçün çalışanların) son zamanlarına və ikinci cümlə min beş yüz altı (1506) məqamı ilə qalibanə (qalib olan) mücahədənin (Allah yolunda edilən cəhdin) tarixinə... işarə edər. (...) Bu tarixə qədər (1506) zahir (görünən) və aşkaranə (açıq, müəyyən), bəlkə qalibanə davam edəcəyinə rəmzə yaxın (işarə yolu ilə) işarə edər". (Sikkeyi-təsdiqi-qeybi, səh. 46)

Həmçinin ustadımız “Kastamonu lahiqə”sinin 33-cü səhifəsində qiyamətin 1545-ci ildə qopacağını bildirmişdir (doğrusunu Allah bilir):

"“Ümmətimdən bir tayfa Allah`ın əmri gəlincəyədək (qiyamətə qədər) haqq üzərində olacaqlar”. “Ümmətimdən bir tayfa...” hissəsinin say dəyəri 1542 (2117) edir və varlığının sonuna işarə edir. “Haqq üzərində olacaqlar” (şəddə sayılır) hissəsinin də say dəyəri 1506 (2082) edir. Bu tarixə qədər zahir və aşkaranə, bəlkə qalibanə; sonra ta 1542-ci (2117) ilə qədər gizli və məğlubiyyət içində aydınlatma vəzifəsinə davam edəcəyinə işarə edir. “Allah`ın əmri gəlincəyədək” (şəddə sayılır) hissəsinin də say dəyəri 1545 (2120) kafirin başında qiyamət qopmasına işarə edir”. (Kastamonu lahiqəsi, səh. 33)

Bu səhih qaynaqlara əsaslanaraq hz. İsanın (ə.s) qayıdışının, hz. Mehdinin (ə.s) zühurunun, İslam əxlaqının yer üzünə hakim olmağının hicri 1400-cü illərdən sonrakı əsrdə olmayacağı çox açıqdır. Hicri 1400-cü illərdə İslam əxlaqı hz. İsanın (ə.s) və hz. Mehdinin vəsiləsi ilə yer üzünə hakim olacaq, onların vəfatından sonra isə sürətli degenerasiya başlayacaq və nəhayət qiyamət qopacaqdır.

Bütün müsəlmanlar Peyğəmbərimizin (s.ə.v) axırzamanla bağlı səhih hədislərinə və böyük İslam alimlərinin açıqlamalarına qəti iman gətirməlidirlər. Bir-birinin ardınca baş verən axırzaman əlamətlərini qulaqardına vurmaq hədislərdə bildirilən bu əlamətlərin yenidən və eynilə hədislərdə bildirildiyi kimi baş verəcəyini iddia etməkdir. Halbuki, bu hadisələr tarixdə yalnız bir dəfə və müəyyən ardıcıllıqla baş vermişdir. Bu isə Peyğəmbərimizin (s.ə.v) bildirdiyi axırzamanda yaşadığımıza qəti dəlildir. Həyata keçən yüzlərlə əlamətə baxmayaraq, bu əlamətlərin bir daha baş verməsini gözləmək ağıl və məntiqə ziddir. Səmimi müsəlmanın bu əlamətlərin Peyğəmbərimizin (s.ə.v) bildirdiyi şəkildə və ardıcıllıqla baş verdiyini bir dəfə görməsi axırzamanda yaşadığımıza, hz. Mehdinin (ə.s), inşaAllah, zühur etdiyinə, hz. İsanın (ə.s) bu dövrdə nüzul edəcəyinə və qiyamət gününün sürətlə yaxınlaşdığına iman gətirməsi üçün kifayətdir.

Qiyamət günü inkar edənlər qorxunu bütün şiddəti ilə yaşayacaqlar

Adnan Oktar: Hz. Mehdinin (ə.s) zühurundan sonra insanların beyinlərinin passiv hissələri də fəaliyyətə keçəcək. El arasında insan beyninin bir hissəsinin passiv, bir hissəsi isə aktiv olduğu deyilir. 2012 -2014-cü illərdən sonra həmin passiv hissələr də aktivləşəcək. Onda bütün dünya mədəniyyətin, incəsənətin, elmin, insanlığın, sevginin, eşqin, məhəbbətin nə olduğunu anlayacaq. Çox möhtəşəm bir zühur olacaq, inşaAllah. Çox böyük sevinc gətirəcək... Bu sevgini, məhəbbəti insanlara hz. Mehdi (ə.s) aşılayacaq, onların əsl sevgini dadmalarına vəsilə olacaq. Hz. Məsihin nüzulu ilə bu, ən yüksək həddə çatacaq. İnsanlar vəcdə gələcək, yəni mənəvi sərxoş olacaqlar, içmədən sərxoş olacaqlar, özlərindən keçəcəklər. İstər Xristian, istər İslam, istərsə də Yəhudi aləmi bu qədər böyük sevgi və həyəcan yaşayacaqlarını ağıllarına belə gətirmirlər. Ancaq hz. Mehdinin (ə.s) və hz. Məsihin (ə.s) vəfatından sonra insanlar çox dərin mənəvi boşluğa düşəcəklər. Olduqca dərin. Daha sonra, Səid Nursi həzrətlərinin də dediyi kimi, hicri 1500-cü illərdən etibarən böyük çökmə yaşanacaq. 2-4-8-16, qiyamətə doğru. Hicri 1543-cü ildən etibarən isə Allah`a iman gətirən bir adam belə tapa bilməzsən. Quranın kağız üzərində hərfi belə qalmayacaq. Səid Nursi

həzrətləri bunun, Allah`ualəm, iki il davam edəcəyini deyir, ancaq indiyədək, Allah`ualəm, dediyi hər şey baş verdi. Məscidləri, Kəbəni yerlə bir edəcəklər. Yəni buldozer və ya başqa texnikalarla yıxacaqlar. Kəbədən əsər-əlamət qalmayacaq, dümdüz əraziyə çevriləcək. Məscidləri də həmçinin, ya meyxana kimi istifadə edəcəklər, ya da ona bənzər bir yer kimi. Bir sözlə, məhv edəcəklər. Allah onlara iki il müddət verir, inşaAllah. Sonra Allah qorxu hissini çox böyük şiddətlə yaşadacaq. İnsanın saçının bir anda ağardığını görəcəklər qiyamət günü. Cənabi Allah: "Sən onları sərxoş zənn edərsən. Lakin onlar sərxoş deyildirlər", - deyir. Allah o gün onlara sual verdikdə cavab verə bilməyəcəklərini, danışa bilməyəcəklərini deyir. Danışa bilmir, əcaib səslər çıxardır. Adını soruşursan, qəribə səslər çıxardır, şiddətli qorxu hissindən ağlı başından çıxır. Bəs sən bütün dünyaya hökmranlıq edirdin? Bəs yenidən insan yaratmaq gücünə sahib idin? Bəs məkiklə kosmosda sistemlər yaradacaqdın? Bəs meteoriti göydə partladacaqdın? İnsan acizliklərini və gücsüzlüklərini bütün çılpaqlığı ilə görəcəklər. "Bədiüzzaman adlı şəxs 1545-ci ildə qiyamətin qopacağını demişdi", - deyəcəklər. Gülməkdən yerə yıxılacaqlar, ağıllarına belə gəlməyəcək. Bəlkə də, ilin ortasına qədər bu, baş verməyəcək. Heç bir şeyin baş verməyəcəyinə inandıqları vaxt, axşamüstü deyir, İstanbulu nəzərdə tutur. Namaz vaxtları hər yerdə müxtəlifdir, İstanbulda da axşam namazı bir az tez qılınır, bilirsiniz.

Aparıcı: Fərzin öndə olması

Adnan Oktar: Bəli, tez qılınır. Bu, İstanbula işarə edən rəvayətdir. Çünki bütün axırzaman hadisələri İstanbula görə deyilmişdir. Boğaz mənzərəsini izləyərək şərablarını içərkən birdən Boğazın bir-birinə yaxınlaşıb uzaqlaşdığını görəcəklər. Ağlasığmaz bir dəhşətlə Boğazdan lava sütunlarının göylərə yüksəldiyini izləyəcəklər. Təbii ki, bu, onlar üçün atəşfəşanlıq olmayacaq. Bundan sonra Allah`ın gücünü, dəhşətini vecinə almamağın nə olduğunu anlayacaqlar. Bütün bədən sistemləri pozulacaq, yəni vücudlarını idarə edə bilməyəcəklər. Cənabi Allah nəzakətli üslubla bunu bizə bildirir. Deyir ki, hamilə qadın bətnindəkini salacaq. Yəni bədən qorxunun şiddətindən idarəni itirəcək. Dağlar hərəkətə gələcək. Məsələn, yeddi təpəli deyilir, dağlar yeriyəcək, əriyə-əriyə yeriyəcək. Sarsıntının gücündən əriməyə başlayacaq. O an Allah`ın gücünə və əzəmətinə tam yəqinliklə iman gətirəcəklər. Göy üzü tamamilə mələklərlə örtülür. Ancaq Allah o gün göz açmağa imkan verməyəcəyini bildirir. Əlbəttə, sona çatır. Onsuz da ağlı başında olmur, tövbə etməyə macalı olmur. Nə edəcəyini bilmir. Əlbəttə, haqqəl-yəqin... Göydən mələklər sıra-sıra yerə enməyə başlayır. İnsanların o günlə üzləşməklərinə çox az qalıb. Nəvələrinin nəvələri qiyaməti görəcək. 1545-ci il, yəni 2120-ci il... Mənim bu video çəkilişlərimi də o vaxta qədər saxlayacaqlar; "Hoca belə demişdi", - deyəcəklər. Bundan da xoşları gələcək, özləri üçün əyləncə düzəldəcəklər. Ancaq hadisələr başlayanda kasetləri yeyəcəklər. Şüurları qapalı olduğu üçün, inşaAllah. (Adnan Oktarın 1 noyabr, 2009-cu il, Kayseri TV müsahibəsindən)

## QURANDA QİYAMƏT ƏLAMƏTLƏRİ

## QİYAMƏT SAATI YAXINDIR

Əksər insanların qiyamət günü haqqında qismən də olsa məlumatı var. Demək olar ki, çox adam qiyamət saatının dəhşətindən az və ya çox xəbərdardır. Buna baxmayaraq, insanlar bu cür həyati bir məsələ haqqında eyni cür hərəkət edir, yəni qiyamətlə bağlı düşünmək və ya danışmaq istəmirlər. Qiyamət saatı gələndə yaşanacaq qorxunu ağıllarına gətirməmək üçün çox səy göstərirlər. Qəzetlərdə oxuduqları bir müsibət xəbərinin və ya başqa bir bəlanı göstərən filmin onlara qiyaməti xatırlatmasına da dözə bilmirlər. Həmin günün mütləq olacağını fikirləşməkdən çəkinirlər. Bu mövzudan danışan insanlara qulaq asmaq istəmədikləri kimi, həmin böyük gündən bəhs edən yazıları da oxumaq istəmirlər. Bunlar qiyamət fikirlərinin səbəb olduğu qorxudan qaçmaq məqsədilə ərsəyə gətirdikləri üsullardan bəziləridir.

Əksər insanlar da qiyamət saatının ciddi və həqiqətəuyğun olduğuna inanmır. Bunun bir nümunəsini "Kəhf" surəsində bəhs edilən zəngin bağ sahibinin ifadələrindən də görürük:

**"Qiyamətin də qopacağını zənn etmirəm. Əgər Rəbbimin hüzuruna qaytarılsam, özümə bundan da yaxşı bir məskən taparam!" ("Kəhf", 18/36)**

Bu cümlələrdə Allah`a inandığını söyləyənlərin, lakin qiyamətin gerçək olduğunu düşünməyənlərin, həm də ayələrə zidd iddialar ortaya atanların beynindəki həqiqət göstərilir.

Başqa bir ayədə də qiyamət saatı ilə bağlı tərəddüd edən, şübhələnən inkarçılardan belə bəhs edilmişdir:

**"Allah`ın vədi haqdır və qiyamətin qopacağına heç bir şəkk-şübhə yoxdur!" - deyildiyi zaman: "Qiyamət nədir, bilmirik! Onun ancaq bir zənn, güman olduğu qənaətindəyik. Biz əmin deyilik!" - deyə cavab verirdiniz!" ("Casiyə", 45/32)**

Bəzi insanlar qiyamət saatını tamamilə inkar edirlər. Bu cür hərəkət edənlər isə Quranda belə bildirilmişdir:

**"Onlar qiyamət saatını da yalan saydılar. Biz də qiyamət saatını yalan hesab edənlər üçün şiddətli bir atəş hazırladıq" ("Furqan", 25/11).**

Həqiqəti öyrənmək məqsədilə bizə yol göstərən mənbəyimiz Qurana nəzər salanda açıq-aşkar bir həqiqətlə qarşılaşırıq. Qiyamətlə bağlı özlərini aldadan insanlar çox böyük səhv edirlər. Çünki Allah ayələrdə qiyamət saatının yaxın olduğunu və bu məsələdə heç bir şübhəyə yer olmadığını xəbər verir:

**"Qiyamət günü mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur..." ("Həcc", 22/7)**

**"Biz göyləri, yeri və onların arasında olan hər şeyi yalnız haqq-ədalətlə yaratdıq. Qiyamət saatı mütləq gələcəkdir..." ("Hicr", 15/85)**

**"Qiyamət mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur..." ("Mumin", 40/59)**

Quranın qiyamətlə bağlı mesajının üstündən 1400 ilə qədər uzun bir zamanın ötdüyünü, bu vaxtın da bir insanın həyatı ilə müqayisədə çox böyük olduğunu fikirləşənlər ola bilər. Ancaq burada bəhs edilən məsələ Yer kürəsinin, Günəşin, ulduzların, qısası, bütün kainatın axırıdır.

Kainatın milyardlarla illik keçmişi nəzərə alınanda 14 əsrlik bir dövrün çox qısa olduğu məlumdur.

Yaxın dövrümüzün böyük İslam alimi Bədiüzzaman Səid Nursi də buna oxşar bir suala hikmətli bir oxşatma ilə belə cavab vermişdir:

"Quranda qiyamətin yaxın olduğu bildirilir. Bu qədər dövr keçəndən sonra gəlməməyi onun yaxın olduğuna zərər verməz. Çünki qiyamət dünyanın əcəlidir. Dünyanın ömrü ilə müqayisə ediləndə min və ya iki min il, bir illə müqayisədə bir-iki gün və ya bir-iki dəqiqə kimidir. Qiyamət saatı ancaq bəşərin əcəli deyil ki, onun ömrü ilə müqayisə edilib gec olacağı qəbul edilsin".[1]

------------------

## CƏNAB ADNAN OKTARIN MÜSAHİBƏLƏRİNDƏN

### "Bədiüzzaman, üç inqilabi-əziməyə diqqət çəkmişdir"

ADNAN OKTAR:….. Amma açıq şəkildə deyirəm ki, gəlmiş keçmiş ən böyük mücəddid və müçtəhiddir Səid Nursi. "Mən", -deyir; yüksək əxlaqına baxın bu insanın. "Mən seyid deyiləm", -deyir; "O gələcək mübarək insan seyiddir", -deyir; "Ondan sonra, o axır zamanda gələcək olan şəxsin", -deyir; "Mehdinin pişdarı, qabaqcıl bir nəfəriyəm", -deyir; "Əsgəriyəm", -deyir; "Hər hansı sıravi bir əsgəriyəm", -deyir və: "Ona mühit hazırlayıram", -deyir. Və: "Gəldiyi zaman", -deyir; ""Risaleyi-nur"un əsl sahibi", -deyir; "Bu əsərlərin əsl sahibi Odur", -deyir və: "Ən yaxşı O anlayacaq bu "Risaleyi-nur" külliyatını", -deyir. Yəni: "Mənim dəyərimi də ən yaxşı O biləcək", - deyir. ""Risaleyi-nur"un da ən yaxşı qiymətini biləcək olan Odur", - deyir. İnşaAllah.

"Risaleyi-nur"un da yenə sirlərini ortaya çıxaracaq olan hz. Mehdidir (ə.s). Yəni içi sirlərlə doludur "Risaleyi-nur" külliyatının. Metafizik bir insandır, qeyri-adidir. "Ta hicri 1506-cı ilə qədər, 1506-cı ildən 1542-ci ilə qədər gizli məğlubanə", -deyir. "Və bir taifeyi-əzəm", - deyir hz. Mehdinin (ə.s) tələbələrinə. O ayrı bir əzəm, onları da ayrı olaraq qatır; "Onlar da", -deyir, yəni: "Davam edəcəklər", - deyir, inşaAllah. "Və axır zamanda yenə hizbi-məqbuldur", -deyir. "Məqbul bir xidmətdir", -deyir. Yəni: ""Risaleyi-nur" külliyatı hələ də oxunmağa davam edəcək", -deyir. 42-yə qədər deyirəm. 42-dən sonra nə "Risaleyi-nur" qalacaq, nə də Quran qalacaq, hamısı göyə rəf ediləcək. Üç il müddətində rüsvayçılıqlarına davam edəcəklər, üç il. Bəli, 1542-dən 42, 43, 44, 45. 1545-ci ildə qorxunun şiddətindən bütün bədənləri iflic olacaq. Allah deyir ki, başları, saçları bütün ağappaq olacaq. Yəni insan ağlının qəbul edə biləcəyi ən böyük qorxu şokunu yaşayacaqlar. Dünyanın fırlanması əksinə olmağa başlayır. Quran, deyir ki, dünyanın başından alınması ilə, yəni dünyanın beynidir Quran. "Alınması ilə dünya artıq divanə olar, ağlını itirər", -deyir. "Və intizamsız hərəkətlərlə başını başqa bir səyyarəyə vurar", -deyir. Yəni bir göy daşı, böyük bir göy daşı, amma böyük

daş ki, həmişə yan keçir hal-hazırda, onsuz da bilirsiniz, tez-tez yan keçir, bu dəfə isə yan keçməyəcək. Vurdusa, tərsinə çevirməyə başlayacaq dünyanı. Maqma, maqmanın hərəkəti dayanmadığı üçün, çünki qabıq dayanacaq; qabıq tərsinə dönəcək, amma maqma sürətdən asılı olaraq dönməyə davam edəcək. Məsələn, siz bir qabın içinə su doldurarsınız, onu mərkəzdənqaçma sürəti ilə bir şey etsəniz və qabı birdən dayandırsanız, su fırlanmağa davam edər və bax, bu, böyük fəlakət törədər. Ayədə də bildirilən odur; "Dənizlərin yandığını görərsən", -deyir. Hər yerdən, boğazlardan, Marmaradan, Aralıq dənizindən, hər yerdən minlərlə, on minlərlə km yüksəkliyə lavalar fışqırmağa başlayacaq yerin altından. Hər yer parçalanacaq, boğazlar açılıb qapanacaq. Qısa zamandır, amma qorxunun ən şiddətlisini yaşayacaqlar, mələklər də daima o anda enməyə başlayacaq... Ancaq ağılın ixtiyarı qalxmış olacaq artıq, dönüş yoxdur ondan sonra, inşaAllah. Ardıcıl hadisələrdir bunlar. Yəni bu, yüz iyirmi il bundan sonra yaşanacaq. Elə bir mövzu yoxdur. Belə ki, hədisləri göstərdim… "Üç inqilabi-əziməyə diqqət çəkmişdir", -deyir ustad, biri də 1545. Ən şiddətlisi, bax, budur. Bu qiyamət. İnqilabi-əzimə, yəni böyük inqilab, böyük dəyişiklik və: "Bununla sonlanacaq", -deyir. Və: "Küfrün başına qiyamət qopmasına işarə edər", -deyir, inşaAllah, Əziz Allah. (Kanal 35, 4 oktyabr 2009)

**Allah`dan başqa heç bir tanrı yoxdur.**

**Olacağına şübhə edilməyən qiyamət günü hamınızı, əlbəttə, O toplayacaqdır.**

**Allah`dan daha doğru danışan kim ola bilər?! (Nisa surəsi, 87)**

## Quran əxlaqının bütün dünyaya anladılması

Quran ayələrində "Allah`ın sünnəsi" şəklində bir ifadə ilə qarşılaşırıq. Bu ifadə Quranda "Allah`ın qanunları" mənasında işlədilir. Ayələrdə bu qanunların həmişə qüvvədə qalması xəbər verilmişdir. Bununla bağlı bir ayədə belə buyurulur:

**"Allah`ın əvvəl gəlib-getmişlər haqqında sünnəsi belədir. Sən Allah`ın sünnəsində əsla dəyişiklik görməzsən!" ("Əhzab", 33/62)**

Dəyişməyən bu qayda-qanunlardan biri də cəmiyyətlərin həlak edilməmişdən əvvəl peyğəmbərlər vasitəsilə müqəddəs bir kitab göndərilərək xəbərdar olunmasıdır. Bu həqiqət bir ayədə belə xəbər verilmişdir:

**"Biz heç bir məmləkəti müəyyən bir kitab gəlib çatmamış məhv etmədik" ("Hicr", 15/4).**

Tarixə nəzər salsaq, Allah məhv etdiyi hər cəmiyyətə əvvəl onları düzgün yola dəvət edən bir kitab göndərmişdir. Buna baxmayaraq, üsyan və azğınlıqlarına davam edənlər onlar üçün müəyyən edilmiş vaxt gəlib çatanda məhv edilmiş gələcək nəsillər üçün ibrət nümunələri olmuşlar. Allah`ın bu qanununu düşündükdə bəzi əhəmiyyətli sirlər də məlum olur.

Qiyamət yer üzündəki bütün cəmiyyətlərin başına gələcək axırıncı müsibətdir. Quran insanların nəsihət alıb düşünmələri üçün göndərilən səmavi kitabların axırıncısıdır və

qiyamətə qədər də yeganə rəhbər olaraq qalacaq. Ayələrdəki ifadə ilə desək, "... aləmlər üçün yalnız bir moizədir" ("Ənam", 6/90).

Quranın ancaq müəyyən bir dövrə və məkana səsləndiyini zənn edən insanlar isə dərin qəflətdədir. Çünki Quran bütün aləmlər üçün bir dəvətdir. Peyğəmbərimizin (s.ə.v) dövründən bu günə kimi Quran həqiqətləri dünyanın hər yerində təbliğ edilir.

Hazırda, yaşadığımız əsr tarixdə bənzəri görünməmiş texnologiya sahəsindəki inkişaf sayəsində Quranın əmrlərinin bütün insanlara çatdırıldığı bir dövrdür. Bu gün elm, təhsil, nəqliyyat və rabitə sahəsindəki inkişaf prosesləri ən yüksək səviyyəyə çatmağa çalışır. Xüsusilə kompyuter və internet texnologiyaları sayəsində dünyanın dörd bir tərəfindəki insanlar bir neçə saniyə ərzində bir-biri ilə danışa bilir, fikirlərini bölüşür və əlaqə qura bilir. Elm və texnologiya inqilabı bütün dünya ölkələrini birləşdirir, "qloballaşma", "dünya vətəndaşlığı" kimi ifadələri söz ehtiyatımıza əlavə edir. Qısası, bütün dünyadakı insanları bir-birindən ayıran maneələrin hamısı sürətlə aradan qalxır.

Bu həqiqətlərin işığında asanlıqla bunları qeyd etmək mümkündür: hazırda, yaşadığımız elm əsrində Allah hər cür inkişafı bizim ondan istifadə etməyimiz üçün xidmətimizə vermişdir. Müsəlmanların üstünə düşən vəzifə də Allah`ın təqdim etdiyi bu imkanlardan ən gözəl və xeyirli formada istifadə etmək və insanların ayağının dəydiyi hər yerdə onları Quran əxlaqına dəvət etməkdir.

## ELÇİLƏR

Allah`ın kainatın yaradılışından günümüzə qədər mövcud olan və dəyişməyən qanunlarından əvvəlki səhifələrdə söhbət açmışdıq. Bu qanunlardan biri də elçi göndərilməyən cəmiyyətə Allah dərgahından bir əzabın gəlməməsidir. Allah`ın bu vədi aşağıdakı ayələrdə belə bildirilir:

**"Sənin Rəbbin mərkəzlərinə ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!" ("Qəsəs", 28/59)**

**"...Biz peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verərik" ("İsra", 17/15).**

**"Biz heç bir məmləkəti ora peyğəmbərlər göndərmədən məhv etmədik. Öyüd-nəsihət vermək üçün göndərdik. Biz zalım deyilik!" ("Şüəra", 26/208-209)**

Ayələrdə də bildirildiyi kimi Allah hər xalqın yaşayış yerinin mərkəzinə xəbərdarlıq və öyüd-nəsihət etmək üçün öz elçilərini göndərir. Bu elçilər də insanlara Allah`ın əmrlərini çatdırır. Ancaq inkarçı cəmiyyətlər hər dövrdə onlara göndərilən elçilərə lağ edir, onları yalançı, saxtakar, dəli kimi müxtəlif böhtanlarla ittiham edir. Allah öz əxlaqsızlıqlarına və azğınlıqlarına davam edən bu xalqları heç gözləmədikləri bir anda böyük müsibətlərlə məhv etmişdir. Nuh, Lut, Ad, Səmud xalqlarının və Quranda bəhs edilən digər qövmlərin ibrətamiz

şəkildə məhv edilmələri bəhs etdiyimiz müsibətlərə misaldır. Allah bizə Quranda elçilərinin göndərməsinin səbəblərini belə bildirmişdir: xalqları müjdələmək, insanlara azğın inanclarından əl çəkib Allah`ın dinini və gözəl əxlaqı yaşaması üçün bir fürsət vermək, elçilərin dəvətindən sonra insanların qiyamət günü heç bir bəhanə gətirə bilməməsi və onlara xəbərdarlıq etmək... Elçilərin göndərilməyinin səbəbini Allah bir ayədə belə vurğulamışdır:

**"Biz peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan kimi göndərdik ki, insanlar üçün peyğəmbərlərdən sonra Allah`a qarşı daha heç bir bəhanə yeri qalmasın..." ("Nisa", 4/165)**

"Əhzab" surəsinin 40-cı ayəsində də xəbər verildiyi kimi, Peyğəmbərimiz (s.ə.v) sonuncu peyğəmbərdir. Hz. Muhəmməd (s.ə.v) Allah`ın Rəsulu və peyğəmbərlərin sonuncusudur ("Əhzab", 33/40).

Başqa bir ifadə ilə desək, Allah`ın bəşərə göndərdiyi vəhylər hz. Muhəmmədlə (s.ə.v) qurtarmışdır. Buna görə də Peyğəmbərimizin (s.ə.v) təbliğ etdiyi Quranın başa salınması və xatırladılması sahəsindəki məsuliyyət qiyamətə qədər bütün müsəlmanlar üçün davam edir.

## İSLAM ƏXLAQININ

## DÜNYAYA HAKİM OLMASI

Quranda tez-tez vurğulanan məsələlərdən biri də azğınlığına və üsyanlarına görə Allah`ın məhv etdiyi xalqlar və onların taleyindən nəticə olaraq alınan ibrətamiz hadisələrdir. Bəhs edilən keçmiş xalqlarla günümüzdəki xalqlar arasında oxşarlıqların çox olması danılmaz həqiqətdir. Hətta günümüzdə də öz cinsi azğınlıqları ilə tanınan Lut xalqı, hiyləgərliklə aldadan və saxtakarlıqla məşğul olan Mədyən xalqı, başqalarına lağ edən və özünü bəyənən Nuh xalqı, üsyankar və azğın Səmud xalqı, nankor İrəm xalqı və məhv edilmiş digər xalqların hərəkətlərini də üstələmiş insanlar yaşayır. Aydın məsələdir ki, bütün bu əxlaqsızlıqların arxasında insanın Allah`ı və yaradılışın məqsədini unutması amili durur.

İçində yaşadığımız dövrdəki cinayət, sosial ədalətsizlik, insanların bir-birini aldatması, oğurluq hadisələri və əxlaqi degenerasiya kimi hallar bəzi insanları ümidsizliyə salır. Ancaq yaddan çıxarmaq olmaz ki, Allah Quranda rəhmətindən ümid kəsilməməsini əmr etmişdir. Ümidsizlik, qorxaqlıq möminə xas olan xüsusiyyətlər deyil. Allah şərik qoşmayaraq Ona qulluq edən, Onun razılığını qazanmağa çalışaraq xeyirli işlər görən möminləri güc və iqtidar sahibi, yer üzünün varisləri edəcəyini müjdələyir:

**"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, möminlər üçün onların Allah`ın özünün bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir!" ("Nur", 24/55)**

Haqq dini səmimiyyətlə yaşayan saleh bəndələrin yer üzünün varisləri edilməsinin Allah`ın bir qanunu olduğu ayələrdə belə bildirilir:

**“Biz zikrdən sonra Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq” (“Ənbiya”, 21/105).**

**“Onlardan sonra da yurdlarında sizi yerləşdirəcəyik. Bu, məqamımdan və əzabımdan qorxanlara aiddir!” (“İbrahim”, 14/14)**

**“Sizdən əvvəl neçə-neçə nəsilləri peyğəmbərləri aşkar möcüzələrlə gəldikləri halda zülm etdikləri və iman gətirmədikləri zaman məhv etdik. Biz günahkarları belə cəzalandırırıq. Onların ardınca yer üzünün varisləri sizi təyin etdik ki, görək özünüzü necə aparacaqsınız” (“Yunis”, 10/13-14).**

**“Musa öz tayfasına: “Allah`dan kömək diləyin və səbir edin. Yer üzü Allah`ındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət müttəqilərindir!” - dedi. Dedilər: “Sən bizə peyğəmbər gəlməmişdən əvvəl də, sonra da biz əziyyət çəkdik!” Musa onlara belə cavab verdi: “Bəlkə də Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün varisləri edəcək, sonra isə nə etdiyinizə baxacaq!”” (“Əraf”, 7/ 128-129)**

**“Allah: “And olsun ki, Mən və peyğəmbərlərimi qalib gələcəyik!” - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüdrət və qüvvət sahibidir!” (“Mücadilə”, 58/21)**

Yuxarıdakı ayələrdə verilən müjdə ilə yanaşı, Allah möminlərə çox mühüm bir vəd də verir. İslam dininin bütün dinlərə üstün etmək üçün insanlara göndərdiyi Quranda belə bildirilir:

**“Onlar Allah`ın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, Öz nurunu tamamlamaq istər. Müşriklərin xoşuna gəlməsə də, (İslamı) bütün dinlərin fövqündə göstərmək üçün peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!” (“Tövbə”, 9/32-33)**

**“Onlar Allah`ın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də - Öz nurunu tamamlayacaqdır! Müşriklərin xoşuna gəlməsə də, İslamın bütün dinlərdən üstün olduğunu göstərmək üçün Öz peyğəmbərini doğru yolu göstərən rəhbərlə və haqq dinlə göndərən Odur!” (“Səff”, 61/8-9)**

Azğın fəlsəfələri, çaşqın ideologiyaları və batil dini anlayışları aradan götürəcək, insanları qaranlıqlardan aydınlığa çıxaracaq gözəl əxlaq yalnız İslam əxlaqıdır.

Yuxarıdakı ayələrdə də vurğulandığı kimi, inkarçıların və müşriklərin bu böyük hadisənin qarşısına keçib ona əngəl ola bilməsi isə mümkün deyil (bu mövzuda ətraflı məlumatı Harun Yəhyanın “Qəzəl Əsr” adlı kitabından oxuya bilərsiniz). İslam əxlaqının tam mənası ilə yaşanacağı bu dövr sevginin, fədakarlığın, yardımlaşmağın, dürüstlüyün, sosial ədalətin və əmin-amanlığın hakim olacağı bir zaman olacaq. Cənnətə oxşayan xüsusiyyətlərinə görə “Qızıl Əsr” adlandırılan belə bir dövr bu günə qədər yaşanmayıb. Bu müqəddəs dövr qiyamətdən əvvəl olacaq. Hazırda, Allah`ın müəyyən etdiyi vaxtı gözləyirik.

**HƏZRƏTİ İSANIN**

**YER ÜZÜNƏ DÖNÜŞÜ**

Hz. İsa Allah`ın seçdiyi peyğəmbərlərdən biridir. Dünyada haqqında ən çox danışılan elçilərdəndir. Allah`a şükürlər olsun ki, əlimizdə nəyin düz, nəyin səhv olduğunu seçə bilməyimizə kömək edən bir mənbə var. Bu da Allah`ın himayəsi altındakı təhrif edilməmiş yeganə kitab olan Qurandır.

İsa peyğəmbərlə bağlı həqiqi məlumatlar əldə etmək üçün Qurana baxdığımızda qarşımıza bunlar çıxır:

**“Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allah`ın peyğəmbəri, Məryəmə çatdırdığı bir sözdür” (“Nisa”, 4/171).**

**“Onun adı Məryəm oğlu İsa əl-Məsihdir” (“Ali-İmran”, 3/45).**

**“Aləmlərə bir möcüzə etdik” (“Ənbiya”, 21/91).**

**Hz. İsa beşikdə ikən insanlarla danışmış (“Ali-İmran”, 3/46) və çoxlu möcüzələr göstərmişdir. Onun başqa bir möcüzəsi isə yer üzünə geri qayıtması və insanlarla danışmasıdır (“Ali-İmran”, 3/49; “Maidə”, 5/110).**

**“İsa peyğəmbər İncili təbliğ etmişdir” (“Hədid”, 57/27).**

**“Onu tanrılaşdıranlar doğru yoldan azmış, küfrə düşmüşlərdir” (“Maidə”, 5/72).**

**“İnkarçılar onu öldürmək üçün hiyləyə əl atdılar. Allah da onların hiyləsinə qarşı əvəz verdi” (“Ali-İmran”, 3/54).**

Allah inkarçıların hz. İsanı öldürmək istəməsinə izn verməmiş, onu Öz yanına yüksəltmişdir. Yenidən yer üzünə qayıdacağını insanlara müjdələmişdir. Hz. İsanın yer üzünə qayıtması ilə bağlı da Quranda bu xəbərlər verilir. İsa peyğəmbəri (ə.s) öldürmək üçün tələ quran inkarçıların onu qətiyyən öldürə bilmədiklərini Allah belə xəbər verir:

**““Biz Məryəm oğlu İsa əl-Məsihi öldürdük” - demələridir. Halbuki, onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onlar İsanı öldürməmişlər” (“Nisa”, 4/157).**

Hz. İsanın ölmədiyi, insanların yaşadığı dünyadan alınaraq Allah yanına yüksəldildiyi ayədə belə bildirilir:

**“Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah qüvvət və hikmət sahibidir!” (“Nisa”, 4/158)**

“Ali-İmran” surəsinin 55-ci ayəsində hz. İsaya tabe olanların qiyamətə qədər inkar edənlərin üstündə olacaqları xəbər verilir. Günümüzdən 2000 il əvvəl hz. İsaya tabe olan həvarilərin heç bir siyasi gücə sahib olmadığı tarixi həqiqətdir. Həmin dövrlə hazırkı tarix arasında yaşayanların və özlərini xristian adlandıranların isə başda təslis (Tanrını üç qəbul etmək) inancı olmaqla, çoxlu batil inancı müdafiə etdikləri və buna görə də həqiqi mənada İsaya tabe olanlar olaraq adlandırıla bilməyəcəkləri də məlumdur. Çünki Quranın əksər ayələrində təslisə inananların inkara düşdükləri ifadə edilir. Elə isə qiyamət saatından əvvəlki bir dövrdə inkar edənlərə üstün gələcək həqiqi mənada İsaya tabe olanlar ortaya çıxacaq və “Ali-İmran” surəsindəki Allah`ın vədi də, beləliklə, təcəlli edəcəkdir. Şübhəsiz ki, bu topluluq hz. İsanın yer üzünə qayıtması ilə özünü göstərəcəkdir.

Quranda xəbər verilən başqa bir məlumat isə hz. İsanın ölümündən əvvəl bütün kitab əhlinin ona iman gətirəcəyidir:

**“Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, qiyamət günündə onların əleyhinə şəhadət verəcəkdir” (“Nisa”, 4/159).**

Bu ayədən aydın olur ki, Allah`ın hz. İsa ilə əlaqəli olaraq hələ həyata keçməmiş üç vədi var. Birincisi, İsa peyğəmbərin hər insan kimi yaşayandan sonra öləcəyi bildirilir. İkinci vəd bütün kitab əhlinin onu fiziki olaraq görəcəyi və ona yaşadığı müddət ərzində itaət edəcəkləridir. Şübhəsiz, bəhs edilən bu iki xəbər də hz. İsanın qiyamətdən əvvəl qayıdışında baş verəcək hadisələrdir. Ayədəki üçün xəbər isə hz. İsanın kitab əhli haqqındakı şahidliyi də qiyamət günündə olacaqdır.

Quranda hz. İsanın ölümündən bəhs edən başqa bir ayə isə “Məryəm” surəsində qeyd edilmişdir:

**“Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim gün də mənə salam olsun!” (“Məryəm”, 19/33)**

Bu ayə “Ali-İmran” surəsinin 55-ci ayəsi ilə birlikdə incələnəndə çox mühüm bir həqiqətə işarə edir. “Ali-İmran” surəsindəki ayədə hz. İsanın Allah`ın hüzuruna yüksəldildiyi ifadə edilir. Bu ayədə ölüm və öldürülmək məsələsi ilə bağlı heç bir məlumat verilmir. Ancaq “Məryəm” surəsinin 33-cü ayəsində hz. İsanın öləcəyi gündən bəhs edilir. Bu ikinci ölüm isə ancaq hz. İsanın ikinci dəfə dünyaya gəlişi və bir müddət yaşayandan sonra vəfat etməsi ilə mümkün ola bilər.

Hz. İsanın yer üzünə qayıdacağına işarə edən başqa bir ayə isə belədir:

**“Allah ona kitabı, hikməti, Tövratı və İncili öyrədəcək” (“Ali-İmran”, 3/48).**

Bu ayədə qeyd edilən “kitab” kəlməsinin nəyi ifadə etdiyini başa düşmək üçün mövzu ilə bağlı digər Quran ayələrinə nəzər salanda bunu görürük: “Kitab” kəlməsi Tövrat və İncillə birlikdə eyni ayədə istifadə edilirsə, “Quran” mənasına gəlir. “Ali-İmran” surəsinin 3-cü ayəsini buna nümunə göstərə bilərik. Elə isə 48-ci ayədə hz. İsanın öyrənəcəyi bildirilən kitab da ancaq Quran ola bilər. İsa peyğəmbərin təxminən 2000 il əvvəlki həyatında Tövratı və

İncili bildiyi məlumdur. Onun Quranı öyrənməsinin isə yer üzünə yenidən qayıdandan sonra olacağı aydın məsələdir.

"Ali-İmran" surəsinin 59-cu ayəsindəki "Allah yanında İsa da Adəm kimidir" ifadəsi də çox maraqlıdır. Bu ayədə iki peyğəmbər arasındakı bəzi oxşarlıqlara diqqət çəkilmiş ola bilər. Məlum olduğu kimi, həm hz. Adəmin, həm də hz. İsanın atası olmamışdır. Bundan başqa, yuxarıdakı ayə hz. Adəmin cənnətdən yer üzünə göndərilməsi hz. İsanın axırzamanda Allah dərgahından yer üzünə göndərilməsinə də oxşadılmış ola bilər (ən doğrusunu Allah bilir).

Quranda hz. İsa ilə bağlı belə bir məlumat da verilir:

**"Şübhəsiz ki, (İsa) qiyamət saatı üçün bir əlamətdir. Qiyamətə şəkk etməyin və Mənə tabe olun. Bu, doğru yoldur!" ("Zuxruf", 43/61)**

Hz. İsanın Quranın göndərilməsindən 6 əsr əvvəl yaşadığını hamımız bilirik. Elə isə yuxarıdakı ayədə xəbər verilən onun birinci həyatının deyil, axırzamanda qayıdışının qiyamət üçün bir əlamət olmasıdır. Hz. İsanın ikinci gəlişi həm xristian, həm də müsəlman dünyasında səbirsizliklə gözlənilir. Bu müqəddəs qonağın yer üzünü şərəfləndirməsi ilə də çox mühüm bir qiyamət əlaməti təcəlli edəcək.

Hz. İsanın yenidən dünyaya gələcəyi ilə bağlı başqa bir dəlil də "Maidə" surəsinin 110-cu ayəsində və "Ali-İmran" surəsinin 46-cı ayəsində bildirilən "kəhlən" kəlməsidir. Ayələrdə belə buyurulur:

**"Xatırla ki, o gün Allah İsaya belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da (kəhlən) o adamlarla danışırdın..."" ("Maidə", 5/110)**

**"O, beşikdə ikən yaşa dolduqdan (kəhlən) sonra insanlarla danışacaq və salehlərdən olacaqdır" ("Ali-İmran", 3/46).**

Bu kəlmə Quranda ancaq yuxarıdakı iki ayədə və ancaq hz. İsa üçün istifadə edilmişdir. Hz. İsanın yetkinlik çağını ifadə etmək üçün işlədilən "kəhlən" kəlməsinin mənası "otuzla əlli yaşları arasında, gənclik dövrünü bitirib yaşlılığa tərəf gedən, yaşı kamala çatmış" deməkdir. Bu kəlmə İslam alimləri tərəfindən "35 yaşdan sonrakı dövrə işarə edir" şəklində tərcümə edilir.

Hz. İsanın gənc sayılan bir yaş olan 30 yaşlarında göyə yüksəldildiyini, yer üzünə qayıdandan sonra 40 il qalacağını ifadə edən və İbn Abbasdan rəvayət edilən hədisə əsaslanan İslam alimləri hz. İsanın yaşlılıq dövrünün yenidən dünyaya qayıdandan sonra olacağını, dolayısilə, bu ayənin hz. İsanın qayıdışı ilə bağlı bir dəlil olduğunu söyləyirlər ("Faslul-maqal fi rəfi İsa hayyən və nüzulihi və qatlihid-dəccal", səh. 20).

Quran ayələrinə diqqətlə baxanda bu ifadənin ancaq hz. İsa üçün işlədildiyinin şahidi oluruq. Bütün peyğəmbərlər insanlarla danışıb onları dinə dəvət etmişlər. Hamısı da yetkinlik çağında təbliğ vəzifələrin yerinə yetirmişlər. Ancaq Quranda heç bir peyğəmbər üçün belə bir

ifadə işlədilməmişdir. Bu ifadə ancaq hz. İsa üçün və möcüzəli bir vəziyyəti ifadə etmək məqsədilə istifadə edilmişdir. Çünki ayələrdə bir-birinin arxası ilə gələn “beşikdə” və “yetkinlik çağında” kəlmələri diqqəti iki böyük möcüzəli dövrə cəlb edir.

Hz. İsanın beşikdə ikən danışması möcüzədir. Bu, həmişə rast gəlinən bir hadisə deyil və ayələrdə bu möcüzə bir neçə dəfə qeyd edilmişdir. Bu kəlmədən sonra gələn “yetkin çağında da adamlarla danışmağı” şəklindəki ifadənin də bir möcüzə olması aydınlaşır. Əgər “yetkin çağında da” ifadəsi hz. İsanın Allah`ın dərgahına yüksəldilməmişdən əvvəlki həyatına işarə etsəydi, hz. İsanın həmin vaxt danışması heç bir möcüzə olmayacaqdı. Bir möcüzə olmadığı üçün də beşikdə ikən danışmağından sonra da bu möcüzəli hadisə ilə sinonim mənasında işlədilməzdi. Onda “beşikdən yetkin olana qədər” şəklində bir ifadə işlədilərdi ki, bu da hz. İsanın beşikdə danışmağa başlamasından göyə yüksəldilməsinə qədər davam edən təbliğini izah etmiş olardı. Ancaq ayədə iki böyük möcüzəli zamana diqqət çəkilir. Bunlardan birincisi, beşikdə ikən, ikincisi isə yetkinlik çağında danışmasıdır. Dolayısilə, möcüzəli bir zamana işarə edən “yetkin çağında da” ifadəsi hz. İsanın möcüzəli şəkildə yenidən yer üzünə qayıdandan sonrakı dövrdə, yetkin ikən insanlarla danışmasıdır.

Hz. İsanın ikinci dəfə yer üzünə gələcəyi ilə bağlı məlumatlar Peyğəmbərimizin (s.ə.v) hədislərində də var. Peyğəmbərimizin (s.ə.v) hədislərində bu müjdə ilə yanaşı, hz. İsanın dünyadakı icraatları ilə əlaqəli xəbərlər də öz əksini tapmışdır. Bu məsələ hədislərin işığında əlinizdəki kitabın “hz. İsa və yalançı peyğəmbərlər” hissəsində qeyd edilmişdir (Daha ətraflı məlumat əldə etmək istəyənlər Harun Yəhyanın “hz. İsa gələcək” adlı kitabından istifadə edə bilərlər).

Bir mühüm məsələni də xatırlatmağın xeyri var. Hz. Muhəmməd (s.ə.v) Allah`ın insanlara göndərdiyi sonuncu peyğəmbərdir. Allah, Peyğəmbərimizə (s.ə.v) Quranı vəhy etmiş və qiyamət gününə qədər bütün insanların üzərinə Qurana tabe olmaq məsuliyyətini qoymuşdur. Hz. İsa da axırzamanda Allah`ın bir möcüzəsi olaraq yer üzünə gələcək. Ancaq Peyğəmbərimizin (s.ə.v) də bildirdiyi kimi, yeni bir din gətirməyəcəkdir. Peyğəmbərimiz (s.ə.v) tərəfindən bəşərə öyrədilən haqq din Quranda bildirilən İslam dinidir və hz. İsa da yer üzünə ikinci dəfə qayıdışında Qurana tabe olacaqdır.

### Hz. İsa və hz. Mehdi bu əsrdə gələcək.

Hər yüz ildə bir din əxlaqını bidətlərdən təmizləmək və yeniləmək üçün Allah tərəfindən bir şəxsin göndərildiyi “Sünəni-Əbu Davud”, “Məktubati-Rəbbani” kimi böyük və mötəbər İslam alimlərinin əsərlərində açıq şəkildə bildirilmişdir:

“Əbu Hüreyrənin rəvayətinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: “Həqiqətən, Əziz və Cəlil olan Allah hər əsrin əvvəlində bu ümmətin dinini bidətdən ayırıb yeniləyəcək (elmli) bir şəxsi göndərər””. (Sünəni-Əbu Davud, 5/100)

Peyğəmbərimizdən (s.ə.v) rəvayət edilən hədislərdə axırzamanda zühur edəcəyi müjdələnən hz. Mehdinin (ə.s) zühuru olaraq isə hicri 1400 tarixi verilmişdir:

“İnsanlar 1400-cü ildə hz. Mehdinin (ə.s) ətrafında toplanacaqlar”. (Risalətül-xürucul Mehdi, səh. 108)

Bu 100 illik dövrdə İslam əxlaqı müəyyən bir müddət içində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mücadilə edən dəccaliyyət sistemi isə tamamilə ortadan qalxacaq. Ancaq orta hesabla 100 il çəkən bu yüksəlmə dövrünün ardından, yəni hicri 1500-cü illərdə dünya yenidən pozulma dövrünə girəcək. İslamın böyük hədis və fiqh alimlərindən biri olan İmam Əhməd bin Hənbəl kimi bir çox alimin bir-birlərindən nəql etdikləri bir hədisdə Peyğəmbərimiz (s.ə.v) özünə qədər dünyada keçən zamanın 5600 il olduğunu bildirib insanlıq tarixinin başlanğıcı haqqında əhəmiyyətli bir məlumat vermişdir:

“Əhməd bin Hənbəl “İləl”ində nəql etdi. İsmayıl bin Əbdülkərim, Əbdüssəməddən, o da Vəhbdən rəvayət etdi: “Dünyadan 5600 il keçmişdir”. (Əli bin Hüsaməddin əl-Müttəqi, “Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman” səh. 89)

Digər tərəfdən, bir çox başqa hədislərdə isə dünyanın ömrünün 7000 il olduğuna dair açıq izahlar mövcuddur:

“Ənəs Malikdən təxric etdi. O dedi ki, Rəsulullah (s.ə.v) buyurmuşdur: “Dünyanın ömrü axirət günlərində yeddi gündür. Allahu-təala buyurdu ki, Rəbbin qatında bir gün sizin saydıqlarınızın min ili kimidir. Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını görərsə, Allahu-təala onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi bu dünyanın yeddi min illik ömrü qədər savab yazar””. (Əli bin Hüsaməddin əl-Müttəqi, “Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman” səh. 88)

“Dəqqaq bin Zeydü-Cühənidən rəvayət etdilər: Mən gördüyüm bir yuxunu Rəsulullaha (s.ə.v) danışdım. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli minbərin lap üstündə idi. O buyurdu ki, bu gördüyün yeddi pilləli minbər dünyanın ömrü olan yeddi min ildir. (Əli bin Hüsaməddin əl-Müttəqi, “Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman” səh. 89)

Hicri 1300-cü ilin və son min ilin ən böyük mücəddidi Ustad Səid Nursi həzrətləri isə İslam əxlaqının hakimiyyət dövrü üçün hicri 1500-cü ili vermişdir. Ustad bu tarixlərə qədərki dövrün müsəlmanların açıq-aşkar qalibiyyət dövrü olacağını ifadə etmişdir. Bundan sonrakı illərdə isə İslam əxlaqının dünyada yüksəliş dövrünün sona çatacağı və kafirlər üçün 1545-ci ildə qiyamət qopacağını söyləmişdir: (Doğrusunu Allah bilir).

““Ümmətimdən bir tayfa Allah`ın əmri gəlincəyədək (qiyamətə qədər) haqq üzərində olacaqlar”. “Ümmətimdən bir tayfa...” hissəsinin say dəyəri 1542 (2117) edir və varlığının sonuna işarə edir. “Haqq üzərində olacaqlar” (şəddə sayılır) hissəsinin də say dəyəri 1506 (2082) edir. Bu tarixə qədər zahir və aşkaranə, bəlkə qalibanə; sonra ta 1542-ci (2117) ilə qədər gizli və məğlubiyyət içində aydınlatma vəzifəsinə davam edəcəyinə işarə edir. “Allah`ın əmri gəlincəyədək” (şəddə sayılır) hissəsinin də say dəyəri 1545 (2120) kafirin başında qiyamət qopmasına işarə edir”. (Kastamonu lahiqəsi, səh. 33)

Böyük İslam alimi Bərzənci həzrətləri də dünyanın ömrünün hicri 1600-cü ilə çatmayacağını, yəni 1500-cü ildə Allah`ın izni ilə qiyamətin qopmasının gözlənildiyini ifadə etmişdir: (Doğrusunu Allah bilir).

"Bu ümmətin ömrü min ili keçəcək, fəqət min beş yüz ili keçməyəcək..." ("Qiyamət əlamətləri", Mədinəli Əllamə Muhəmməd bin Rəsul əl-Hüseyni əl-Bərzənci, "Pamuk" Nəşriyyatı, İstanbul 2002, səh. 299)

Peyğəmbərimizdən (s.ə.v) rəvayət edilən hədisə əsasən, Suyuti həzrətləri isə açıqlamasında belə bildirir:

"Mənim ümmətimin ömrü 1500 ili keçməyəcək". (Suyuti, "Əl-kəşfü ən mücavəzəti-Həzihil-ümməti-əl-əlfu, əl-havi lil fətavi", Suyuti. 2/248, "Təfsiri-ruhul-bəyan". Bursəvi. (Ərəbcə) 4/262, Əhməd bin Hənbəl, "Kitabül-iləl" səh. 89)

Peyğəmbərimizin (s.ə.v) hədislərindən və böyük İslam alimlərinin açıqlamalarından da açıq şəkildə aydın olduğu kimi, yaşadığımız hicri 1400-cü illər hz. İsanın (ə.s) gəlişi və hz. Mehdinin (ə.s) zühur vaxtıdır. Bu əsrdə hz. İsa (ə.s) yer üzünə yenidən gələcək, hz. Mehdi (ə.s) zühur edəcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

## AYIN YARILMASI

Quranın 54-cü surəsinin adı "Qəmər"dir. Bunun Azərbaycan dilində mənası "ay" deməkdir. Bu surənin çox yerində göndərilən peyğəmbərlərin xəbərdarlıqlarını yalan sayan Nuh, Ad, Səmud və Lut xalqının, fironun və yaxınlarının başına gələn müsibətlərdən bəhs edilir. Həmçinin birinci ayədə qiyamətin vaxtı ilə əlaqəli çox mühüm bir mesaj verilir:

**"Saat yaxınlaşdı, ay parçalandı" ("Qəmər", 54/1).**

Ayədə işlədilən "parçalanmaq" feli ərəb dilində "şaqqa"dır. Ərəb dilində bu kəlmənin müxtəlif mənaları var. Bəzi Quran təfsirlərində "iki yerə parçalanmaq" mənası qəbul edilmişdir. Bununla yanaşı, "şaqqa" kəlməsi ərəb dilində "torpağı belləmək", "torpağı qazmaq" mənalarına da gəlir. İkinci mənaya misal olaraq "Əbəsə" surəsinin 26-cı ayəsini göstərə bilərik:

**"Həqiqətən, Biz yağışı bol yağdırdıq. Sonra yeri yardıqca yardıq. Belə ki, oradan dən göyərtdik: üzüm və yonca, zeytun və xurma bağları" ("Əbəsə", 80/25-29).**

Aşkar göründüyü kimi, bu ayədəki "şaqqa" ifadəsi "yerin iki yerə parçalanması" mənasında deyil, "müxtəlif bitkilərin cücərməsi üçün torpağın bellənərək yarılması" mənasında işlədilmişdir.

Burada 1969-cu ilə qayıdanda Quranın çox böyük bir möcüzəsi ilə qarşılaşırıq. "Qəmər" surəsində 14 əsr qabaq xəbər verilən ayə 1969-cu il, iyul ayının 20-də Ayın səthində düşmək

nəticəsində öz təsdiqini bir daha tapmışdır. Amerikalı astronavtların Ayda addımlaması, Ayın torpağında elmi tədqiqatlar aparması, oradan daş və torpaq nümunələri götürməsi Ayın yarılması ayəsindəki ifadələrə uyğun gəlir. Astronavtlar Ayın səthində olduqları müddət ərzində elmi araşdırmalar və təcrübələr aparmış, 22 kiloqram ağırlığında daş və torpaq nümunələri toplamışdılar. Bu nümunələr sonralar böyük marağa səbəb olmuşdu. NASA-nın raportlarında xalqın Aydan gətirilən bu nümunələrə göstərdiyi marağın XX əsrdəki digər kosmik araşdırmalara göstərilən maraqdan daha böyük olduğu bildirilmişdir.[2]

Bununla yanaşı, 2009-cu ilin oktyabr ayında bu ayədə bildirilən hadisəyə işarə edən bir olay yaşanmışdır. Ayda su axtarışları aparan NASA Ayı bombalamış və 9000 km-lik sürətlə gerçəkləşən bu toqquşmanın təsiri ilə 350 ton ağırlığında toz buludu əmələ gəlmişdir. Yəni Ayın üzəri bir dəfə yenə yarılmışdır. Ayədə xəbər verildiyi kimi, saatın, yəni hz. İsa (ə.s) və hz. Mehdinin (ə.s) zühurunun, dəbbətül-ərzin çıxmasının və qiyamətin qopmasının yaxınlaşdığı bir vaxtda Ay yarılmışdır. Göründüyü kimi, ayədə Peyğəmbərimizin (s.ə.v) Allah`ın təqdiri ilə göstərdiyi Ayın yarılması möcüzəsindən başqa söz mövzusu hadisələrə də işarə edilir.

Bunu da qeyd etməliyik ki, bəhs edilən əlaməti xəbər verən ayələrin arxası ilə çox mühüm bir xəbərdarlıq gəlir. Bu ayələrdə Allah`ın dərgahından gələn işarələrin insanları qəflət və xətalardan özlərinə gəlməsinə səbəb olacaq böyük fürsət olduğu, bu xəbərdarlıqları gördükləri halda pis, dəhşətli bir gün olaraq tanıdılan qiyamət günü dirildiləndə peşman olacaqları xatırladılır:

**“Saat yaxınlaşdı, ay parçalandı. Əgər onlar bir möcüzə görsələr, üz döndərib: “Bu uzun müddət davam edən bir sehrdir!” - deyərlər. Onlar təkzib etdilər və öz nəfslərinin istəklərinə uydular. Halbuki, hər bir iş qərarlaşdırılmışdır! And olsun ki, onlara çəkindirən neçə-neçə xəbərlər gəlmişdir. Olduqca böyük hikmətdir. Lakin qorxutmalar, öyüd-nəsihət heç bir fayda verməz! Artıq sən onlardan üz çevir. Carçının onları olduqca pis, dəhşətli bir şeyə çağıracağı günü gözlə! Onlar gözlərini zəlilanə aşağı dikib səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar. Kafirlər carçıya tərəf tələsərək: “Bu, nə çətin bir gündür!” - deyəcəklər” (“Qəmər”, 54/1-8).**

## HƏDİSLƏRDƏ QİYAMƏT ƏLAMƏTLƏRİ

On dörd əsr əvvəl Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) qiyamətlə əlaqəli bəzi qeybi məlumatları və bunlarla bağlı fikirlərini yanındakı müsəlmanlara xəbər vermişdi. Bu dəyərli sözlər nəsillərdən-nəsillərə ötürülmüş, hədis kitabları və İslam alimlərinin əsərləri ilə günümüzə qədər gəlib çatmışdır. Əlinizdəki kitabın sonrakı səhifələrində qeyd edilən hədislər də Peyğəmbərimiz (s.ə.v) tərəfindən bu mənada deyilmiş xəbərləri ehtiva edir. Bu hədislərin səhih, yəni etibarlı və doğru olduğunun ən əhəmiyyətli isbatlarından biri həmin hədislərdə xəbər verilən bütün əlamətlərin hicri 1400-cü ilin əvvəlindən etibarən son 30 ilin içində ard-arda gerçəkləşməsidir. Hədislərdəki hadisələrin baş verməsi bu hədislərin doğru olduğunu göstərir.

Hədislərdə bildirilən əlamətlərdən bəziləri 1400 illik İslam tarixinin hər hansı bir dövründə, dünyanın müəyyən bir bölgəsində, müəyyən bir ölçüdə görülə bilər. Belə bir vəziyyət həmin dövrün axırzaman olduğunu göstərməz. Çünki bir dövrün axırzaman adlandırılması üçün qiyamət əlamətlərinin hər birinin eyni əsrdə, bir-birini ardınca həyata keçməsi lazımdır. Bu vəziyyət bir hədisdə belə bildirilir:

“Qiyamət əlamətləri bir cizgidəki muncuqların arxa-arxaya qoşulduğu kimi bir-birinin arxası ilə meydana gələr”. (“Ramuz əl-əhadis”, 277/6; “Camius-səğir”, 3/167)

Yuxarıdakı məlumatın aydınlığında axırzaman hədisləri incələnəndə heyrətləndirici bir nəticə ortaya çıxır. Peyğəmbərimizin (s.ə.v) əsrlərlə əvvəl təfərrüatı ilə açıqladığı əlamətlər demək olar ki, dünyanın hər yerində bir-birinin ardınca və bildirildiyi kimi hazırda yaşadığımız əsrdə baş verir. Sanki hədislər bu dövrün portretini çəkir. Bu isə əlbəttə ki, çox möcüzəli bir hadisədir. Ortaya çıxan hər qiyamət əlaməti insanlara Allah`ın qarşısında hesab verəcəkləri qiyamət gününün çox yaxınlaşdığını və Quran əxlaqını həyat tərzi halına gətirməsinin əhəmiyyətini bir dəfə də xatırladır.

Bu açıq həqiqətə baxmayaraq, hz. İsanın (ə.s) və hz. Mehdinin (ə.s) bu əsrdə zühur etməyəcəyini, İslamın bu əsrdə yer üzünə hakim olmayacağını deyənlər çox yanılırlar. Belə adamların bu səhv inancına görə, 30 il içində gerçəkləşən və gerçəkləşməyə davam edən 200-dən çox əlamət eyni şəkildə, təkrar və ard-arda yenidən gerçəkləşməlidir. Şübhəsiz ki, bu, səmimi və həqiqi bir iddia deyil. Ağıllı və səmimi olan isə bu iki mübarək şəxsin zühurunun, yəni qiyamətin yaxınlaşdığının əlaməti olan yüzlərlə hadisənin bu əsrdə gerçəkləşdiyini görmək və bu gözəl dövrdə olmağın sevincini yaşamaqdır.

Kitabın bu hissəsində Peyğəmbərimizin (s.ə.v) xəbər verdiyi qiyamət əlamətlərindən sadəcə bir qisminə yer verilmişdir. (Mövzu ilə əlaqədar daha ətraflı məlumat əldə etmək istəyənlər www.hazretimehdi.com saytına baş vura bilərlər)

## MÜHARİBƏLƏR VƏ ANARXİYA

Peyğəmbərimiz (s.ə.v) axırzamanın xüsusiyyətlərindən bəhs etdiyi bir hədisində bunları xəbər vermişdir:

“Dünya hərc-mərclik içində qalanda, fitnələr zühur edəndə, yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə...” (“Qiyamət və axirət və axırzaman əlamətləri”, səh. 454)

“Hərc-mərclik” kəlməsinin lüğəvi mənası “darmadağınlıq”, “qarmaqarışıqlıq”dır. Hədisdə bu vəziyyətin müəyyən bir bölgə ilə məhdudlaşmayacağı, dünyanın hər tərəfinə yayılacağı bildirilir. Yolların kəsilməsi və bəzi insanların digərlərinə hücum etməsi də hədisdə işarə edilən dövrün əlamətləri arasındadır. Başqa bir hədisdə də yuxarıdakı hadisə oxşar bir şəkildə ifadə edilir: “Qiyamət yaxınlaşır... hərc çoxalır”, - deyən Peyğəmbərimizdən (s.ə.v) “hərc”in nə olduğunu soruşmuşlar. Peyğəmbərimiz (s.ə.v) də “hərc”in cavabının “öldürmək” olduğunu bildirmişdir (“Quran və sünnədə qiyamət və axirət”, səh. 172).

Peyğəmbərimizin (s.ə.v) bu məsələ ilə bağlı bizə çatan digər hədislərindən bəziləri də bunlardır:

"Qiyamətə yaxın vaxtlarda anarxiya və qarışıqlıq günləri var". (Suyuti, "Camius-səğir", 3/211; Əhməd bin Hənbəl, "Müsnəd", 2/492)

"Bu hadisələr meydana gəlməyənə qədər qiyamət qopmayacaq: ölüm hadisələri və qətliamlar geniş yayılacaq..." ("Camius-səğir", 3/211; "Müsnəd", 2/492, 4/391, 392)

Yuxarıdakı hədislərin tədqiq edilməsi bizi çox mühüm nəticələrə gətirib çıxarır. Peyğəmbərimiz (s.ə.v) bəhs etdiyi döyüşlər, qarışıqlıq, xaos və qətliamlarla bütün yer üzünü bürüyən müharibələri və terror hadisələrini təsvir edir, bu hadisələrin də qiyamətin əlamətlərindən olduğunu bildirir.

Arxada qalan 14 əsrlik dövrə baxanda görürük ki, XX əsrdən əvvəlki müharibələr bölgələrə məxsus olmuşdur. Dünyadakı bütün xalqları, siyasi mexanizmləri, iqtisadiyyatı, sosial həyatı öz təsiri altına salan müharibələr isə yaxın tarixdə yaşanan iki dünya müharibəsi olmuşdur. I Dünya Müharibəsində 20 milyondan, II Dünya Müharibəsində isə 50 milyondan çox insan ölmüşdür. II Dünya Müharibəsinin tarixin ən qanlı, ən böyük və ən dağıdıcı müharibəsi olduğu bəlli həqiqətdir.

Dövrümüzün müasir döyüş texnikası, nüvə, bioloji və kimyəvi silahları müharibələrin təsirini tarixdə görünməyən ölçülərə gətirib çıxarmışdır. Hətta kütləvi qırğın silahlarına görə dünyanın III Dünya Müharibəsinə tab gətirə bilməyəcəyi qəbul edilmişdir.

II Dünya Müharibəsindən sonra soyuq müharibə, Koreya, Vyetnam, ərəb-İsrail, İran-İraq və Körfəz müharibələri əsrimizin ən mühüm hadisələridir. Regional müharibələr, vuruşmalar və vətəndaş müharibələri eyni anda dünyanın əksər bölgələrində dağıdıcı nəticələrə gətirib çıxarır. Bosniya, Fələstin, Əfqanıstan, Kəşmir və dünyanın adını çəkmədiyimiz müxtəlif yerlərində baş verən hadisələr bəşəriyyəti öz təsiri altına almaqda davam edir.

Müharibələr qədər dünyanın bütün insanlarını maraqlandıran başqa bir xaos isə beynəlxalq və təşkilatlanmış terror hadisələridir. Boston Universitetindən professor Voytiç Mestninin bildirdiyi kimi, terror hadisələri XX əsrin ortalarından sonra həddindən artıq çoxalmışdır.[4] Həqiqətdə isə terrorizmin XX əsrə məxsus olduğunu söyləmək də mümkündür. İrqçilik, kommunizm və bunlara bənzər ideoloji məqsədlərlə və yaxud da etnik iddialarla ortaya çıxan təşkilatlar inkişaf edən texnologiyanın köməyi ilə qanlı əməliyyatlar törətmişlər.

Dünyada yaxın dövrlərdə baş verən terror hadisələri böyük qarışıqlığa səbəb olmuşdur. Bu kədərləndirici hadisələrdə çox qanlar tökülmüş, saysız insanlar ölmüş və ya şikəst olmuşdur. Ancaq bəşəriyyət hələ də faciələrdən özünə düşən payı almamışdır. Terror dünyanın əksər ölkələrində öldürücü anarxiya hadisələrinə səbəb olmaqda davam edir.

Mövzu ilə bağlı ayələrdən də bəzi dərslər çıxara bilərik. "Rum" surəsində insanların etdiyi əməllər səbəbi ilə yer üzündə qarışıqlıqların ortaya çıxdığı belə xəbər verilir:

**“İnsanların öz əlləri ilə etdikləri pis əməllər üzündən suda və quruda fəsad, pozuntu əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasını daddırsın və bəlkə onlar qayıtsınlar” (“Rum”, 30/41).**

Bunu da əlavə etmək lazımdır ki, ayədə vacib bir məsələ xatırladılır. İnsanların səhvləri ucbatından baş verən faciə və kədərlər onları bu səhvlərindən dönməsi üçün bir fürsət anlamına gəlir.

Qısası, dünyanın hərc-mərclik içində qaldığı dövr hazırda yaşadığımız əsrdə bütün yönləri ilə yaşanmış və nəticə qiyamətin bir əlaməti olaraq bu cür təcəlli etmişdir. Eyni zamanda, bu əlamət insanlara Quran əxlaqını yaşamaq üçün çox mühüm bir xəbərdarlıq olmuşdur.

## BÖYÜK ŞƏHƏRLƏRİN YOX OLMASI:

## MÜHARİBƏLƏR VƏ BƏLALAR

Peyğəmbərimizin (s.ə.v) axırzamanla bağlı verdiyi xəbərlərdən biri də bu cürdür:

“Böyük şəhərlər dünən sanki yox imiş kimi məhv olar”. (“Kitabül-bürhan fi əlamətil Mehdiyyil-axırzaman”, səh. 38)

Hədisdə qeyd edilən böyük şəhərlərin məhvi müharibələr və başqa təbii fəlakətlər nəticəsində meydana gələn dağıntıları göz önünə gətirir. Yaxın keçmişdə hazırlanan nüvə silahları, təyyarələr, bombalar, raketlər və buna oxşar müasir silahların müharibələrdə istifadə edilməsi böyük dağıntılara səbəb olmuşdur. Bu qorxulu silahlar tarixdəki silahlarla müqayisə edilməyəcək səviyyədə dağıntılar törətmişdir. Əlbəttə, hədəf seçilən böyük şəhərlər də bu dağıntılardan birinci dərəcədə təsirlənən yerlər olmuşdur. II Dünya Müharibəsinin tarixdə görünməyən nəticələri buna misal olaraq göstərilə bilər. Dünya tarixinin ən böyük müharibəsində atom bombasından istifadə edilməklə Xirosima və Naqasaki tamamilə yerlə-yeksan olmuşdur. Avropa ölkələrinin paytaxtları və əsas şəhərləri də ağır bombardmanlar nəticəsində çox böyük miqyasda dağıntılara məruz qalmışdır. “Britannika” ensiklopediyasında II Dünya Müharibəsinin Avropanın şəhərlərindəki dağıntılara səbəb olduğunu belə qeyd edir:

“Meydana gələn dağıntılar Avropanın çox böyük hissəsini Ayın səthinə çevirmişdi: şəhərlər bombardmanlar nəticəsində xaraba qaldı, istirahət zonaları yanıb kül oldu, yollar bombardmanların açdığı çuxurlarla doldu, dəmir yolları istifadə edilməyəcək vəziyyətə düşdü, körpülər dağıldı, limanlar batmış gəmilərlə doldu. Müharibədən sonra Almaniyanın ABŞ nüfuz dairəsinin hərbi komendantı general Lukyis D.Kleyin dediyi kimi, Berlin sanki ölülərin şəhəri kimi idi”.[5]

Qısası, II Dünya Müharibəsinin tarixdə bənzəri görülməyən ölçülərdəki dağıntıları hədisin işarə etdiyi hadisə ilə üst-üstə düşür.

Şəhərlərin yox olmasına səbəb olan başqa bir təsir də təbii fəlakətlərdir. Statistik məlumatlar da göstərir ki, hazırda yaşadığımız dövrdə baş verən təbii fəlakətlər həm rəqəm baxımından, həm də böyüklüyünə görə daha da çoxalmışdır. Axırıncı 10 ildə baş verən iqlim dəyişikliklərinin yol açdığı fəlakətlər də bir dönüş nöqtəsi olaraq qəbul edilir. Sənaye zərərli və arzuedilməz bir məhsul olan qlobal istiləşməyə səbəb olur. Dünyanın atmosferindəki tarazlıq getdikcə pozulur və bununla da iqlim dəyişiklikləri meydana gəlir. 1998-ci il indiyə qədər qeyd edilən ən isti il olmuşdur.[6] ABŞ-ın yerli iqlim idarəsinin məlumatlarına görə, iqlimin səbəb olduğu ən çox fəlakət 1998-ci ildə meydana gəlmişdir.[7] Məsələn, müşahidəçilər 1998-ci ildəki Mitç qasırğasının Orta Amerikanın tarixində meydana gələn ən pis fəlakət olduğunu bildirmişlər.[8] 2006-cı ildə meydana gələn Katrina qasırğası Nyu-Orleans şəhərini, demək olar ki, tamamilə suya batırmışdır.

Son illərdəki qasırğa, fırtına, tufan və burulğan kimi fəlakətlər başda Amerika qitəsi olmaqla, dünyanın əksər yerində dağıntı və zərərlərə səbəb olmuşdur. Bunlara əlavə olaraq, sellər də bəzi yaşayış mərkəzlərinin su və palçıq altında qalmasına yol açmışdır. Bundan başqa, zəlzələlər, vulkanlar və sunami dalğalarının vurduğu böyük dağıntılar da yaddan çıxarılmamalıdır. Nəticə olaraq, bütün bu fəlakətlərin böyük şəhərlərdə səbəb olduğu dağıntıların hamısı qiyamətin çox mühüm əlamətlərindən birini təşkil edir

## ZƏLZƏLƏLƏR

Şübhəsiz ki, tarix boyu bəşəriyyətə zəlzələlər qədər təsir edən çox az təbii fəlakətlər olmuşdur. Hər an, hər yerdə meydana gələn zəlzələlər əsrlər boyu çoxlu insanların ölümünə və astronomik ölçülərdə maddi zərərə yol açmış, bu xüsusiyyətinə görə də insanlar üçün qorxu mənbəyi olmuşdur. XX və XXI əsrin texnologiyaları da zəlzələlərin səbəb olduğu zərərlərin ancaq bir qisminə mane ola bilmişdir. Texnologiyanın təbiət üzərində hakimiyyət qurmaq üçün vasitə olacağı xəyalına düşən bəzi insanlara isə 1995-ci ilin Kobe zəlzələsi çox ciddi bir dərs vermişdir. Xatırlandığı kimi, Yaponiyanın böyük sənaye və nəqliyyat mərkəzində baş verən zəlzələ heç gözlənilməyən bir anda meydana gəlmişdir. Adıçəkilən zəlzələ 20 saniyə davam etsə də, “Time” jurnalının məlumatlarına görə, 100 milyard ABŞ dollarına yaxın zərər vurmuşdur.[9]

ABŞ Geoloji Araşdırma Mərkəzinin (USGS) hesabatına görə, 1556-1975-ci illərdə 5 və daha böyük şiddətdə baş verən zəlzələlərin sayı cəmi 110 olmuşdur. 1980-2003-cü illərdə (sadəcə 23 ildə) meydana gələn böyük şiddətdəki zəlzələlərin sayı isə 1685 olmuşdur. Göründüyü kimi, keçmiş illərdəki zəlzələlərin sayı çox az olduğu halda, hicri 1400-cü ilin əvvəlindən zəlzələlər artmışdır.

Son bir neçə il ərzində meydana gələn böyük və uzunmüddətli zəlzələlər həmişə dünyanın aktual maddəsi olaraq qalır. Amerikanın yerli zəlzələ informasiya mərkəzinin məlumatlarına nəzər salsaq, 1999-cu ildə yer üzündə 20832 zəlzələ meydana gəlmişdir. Bu zəlzələlərdə təxminən 22711 insan həlak olmuşdur.[10]

Son otuz ildə dünyada baş verən zəlzələlərdən bir neçəsi bunlardır:

_ 28 iyul 1976-cı ildə Çində 7.8 bal gücündə zəlzələ oldu. 242 min nəfər öldü, 164 şəxs yaralandı.

_7 dekabr 1988-ci ildə Ermənistanda baş verən zəlzələdə 20000 nəfər öldü, 500000 min nəfər evsiz qaldı.

_20 iyun 1990-cı ildə İrandakı 7.7 bal gücündəki zəlzələdə 40 min nəfər öldü, 100 min nəfər yaralandı.

_1995-ci ildə Kobe zəlzələsi 20 saniyə davam etməsinə baxmayaraq, 100 milyard dollar zərərə səbəb oldu.

_ Hindistanda 26 yanvar 2001-ci ildə baş verən 6.7 bal gücündəki zəlzələdə 25 min nəfər öldü, 166 min nəfər yaralandı.

_ 26 dekabr 2003-cü ildə İranda meydana gələn 6.7 bal gücündəki zəlzələdə 31 min 884 nəfər öldü, 18 min nəfər yaralandı.

_26 dekabr 2004-cü ildə İndoneziyada 9.0 bal gücündəki zəlzələ nəticəsində meydana gələn sunamidə 300 min nəfər öldü.

_ 8 oktyabr 2005-ci ildə Pakistanda baş verən 7.6 bal gücündəki zəlzələdə təxminən 100 min nəfər öldü.

Bütün bu hadisələr Peyğəmbərimizin (s.ə.v) 1400 il əvvəl dediyi bu sözləri gözümüzün önünə gətirir:

"Bu hadisələr olmayana qədər qiyamət qopmayacaqdır... zəlzələlər çoxalacaq..." ("Ramuz əl-əhadis", 476/11)

"Qiyamətdən əvvəl iki böyük hadisə var... və sonra da zəlzələli illər". ("Ramuz əl-əhadis", 187/2)

Quranda da zəlzələ ilə qiyamət arasındakı əlaqəyə işarə edən ayələr var. Quranın 99-cu surəsinin adı "Zəlzələ" surəsidir. Səkkiz ayədən ibarət olan bu surədə yerin şiddətli sarsılması təsvir edilir, bundan sonra da qiyamət günü insanların dirildiləcəkləri və Allah`ın hüzurunda hesab verəcəkləri, zərrə ağırlığında da olsa etdikləri işlərinin əvəzini alacaqları bildirilir:

**"Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman, yer öz yükünü çıxardıb atacağı zaman, insan: "Bu yerə nə olub?" - deyəcəyi zaman- məhz o gün yer öz hekayətini söyləyəcəkdir- Allah`ın ona etdiyi vəhy ilə! O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə çıxacaqlar!" Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir. Kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir" ("Zəlzələ", 1-8).**

## KASIBLIQ

Bəlli olduğu kimi, kasıblıq az qazanca görə insanın qidalanmaq, məskunlaşmaq, geyinmək, səhiyyə xidmətləri kimi əsas ehtiyaclardan yoxsul olmasıdır. İnkişaf etmiş texnologiyaya baxmayaraq, kasıblıq hazırkı dünyanın qarşısında dayanan ən böyük problemlərdən biridir. Afrika, Asiya, Cənubi Amerika və Şərqi Avropadakı insanların çoxu aclıq içində yaşayır. Müstəmləkəçilik və vəhşi kapitalizm dünyadakı gəlir nisbətinin geri qalmış və inkişaf etməkdə olan ölkələrin əleyhinə pozulmağına səbəb olmuşdur. Dünyadakı az saydakı xoşbəxt azlıq ehtiyaclarına artıqlaması ilə sahib olduğu halda, kasıblıq və yoxsulluğun gətirdiyi problemlərlə mübarizə aparan çoxlu sayda insan var.

Günümüzdə kasıblıq bütün dünyada çox ciddi ölçülərə gəlib çatmışdır. UNICEF-in son məlumatları da nəzərə alınsa, dünya əhalisinin dörddə biri təsəvvür edilməz sıxıntı və yoxsulluq şəraitində yaşayır.[11] 1 milyard 300 milyon adam gündə 1 dollar, 3 milyard adam isə gündəlik 2 dollarla keçinir.[12] Təxminən 1 milyard 300 milyon insan təmiz sudan, 2 milyard 600 milyon insan əsas səhiyyə xidmətlərindən yoxsuldur.[13]

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2000-ci ildəki məlumatlarına görə, 826 milyon insan kifayət qədər qidalanmır. Başqa bir ifadə ilə desək, hər 6 nəfərdən 1-i aclıq çəkir.[14]

Qazanc paylanmasındakı ədalətsizlik də son bir neçə onillikdə həddin artıq dərəcədə, nəzərdə tutulandan da çox səviyyədə böyümüşdür. Birləşmiş Millətlər Təşkilatının mənbələri göstərir ki, 1960-cı ildə dünya əhalisinin ən kasıb 20 faizi ilə ən varlı 20 faizi arasındakı qazanc nisbəti 30 faiz olduğu halda, bu rəqəm 1995-ci ildə 82 faiz olmuşdur.[15] Sosial ədalətdəki tənəzzülə bir misal da dünyanın ən varlı 225 şəxsinin sərvətinin dünya əhalisinin 47 faizinin illik qazancına bərabər hala gəlməsidir.[16]

Statistik məlumatların göstərdiyi bu rəqəmlər həm də Peyğəmbərimizin (s.ə.v) bəhs etdiyi kasıblığın artacağı ilə bağlı xəbərinin də bir təzahürüdür. Axırzamanın ilk dövrünün əlamətləri olan kasıblıq və aclıq hədislərdə belə xəbər verilmişdir:

"Kasıblar çoxalacaq". ("Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri", səh. 455)

"Aclıq və həyatın bahalılığı çox yayılacaq". ("Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri", səh. 440)

Peyğəmbərimizin (s.ə.v) işarə etdiyi dövrün günümüzün şərtlərini təsvir etməsi aşkardır. Keçmiş əsrlərə nəzər salanda quraqlıq, müharibələr və ya fəlakətlər kimi səbəblərə görə çətinlik və sıxıntılar yaşandığı, lakin bunların keçici və bölgələrə xas səviyyədə qaldığı görünür. Halbuki, içində yaşadığımız əsrdə yaşanan kasıblıq və dolanışıq çətinlikləri qalıcı, sistemli və böyük ölçülü bir quruluşa malikdir.

Şübhəsiz, Rəbbimiz sonsuz şəfqət və mərhəmət sahibidir, insanlara zülm edən deyil. Ancaq insanlar etdikləri pislik və nankorluqlara görə yoxsulluq və sıxıntılara şərait hazırlayırlar. Əlbəttə, bu cür haqsız və kədərləndirici vəziyyət dini, əxlaqi və vicdani dəyərlərdən yoxsul, təkəbbürlülük və mənfəət əlaqələri üzərində qurulan bir dünya sisteminin qaçılmaz nəticəsidir.

**İqtisadi böhran qiyamət əlamətlərindəndir**

2007-ci ildə başlayan, 2008 və 2009-cu ildə şiddətini artıran və 2014-cü ilə qədər davam etməsi gözlənilən iqtisadi böhran Peyğəmbərimizin (s.ə.v) xəbər verdiyi əlamətlərdən biridir. Yüz minlərlə insanın işsiz qalmasına, yoxsulluğun ən yüksək həddə çatmasına, yüzlərlə şirkətin, hətta ölkələrin iflas etməsinə səbəb olan bu böhranla bağlı hədislərdən bəziləri bunlardır:

Bazarların təqarübü qiyamət əlamətlərindəndir. Dedim ki, "Bazarların təqarübü nə deməkdir?" Bunlardır: "Hər kəsin az qazancdan şikayət etməsi". (İbni Mərduveyh əbu Hüreyrədən (r.ə) (Qiyamət əlamətləri, "Pamuk" nəşriyyatı, səh. 146)

Nuaym bin Həmmad ibni Məsuddan rəvayət edilən bir hədisdə hz. Mehdinin (ə.s) ortaya çıxmasından əvvəlki dövr ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman şəklində təsvir edilir. Hədisin davamında isə hz. Mehdi (ə.s) dövründə bu fitnələrin sona çatacağı xəbər verilir: "...Biz o (hz. Mehdi (ə.s)) şəxsi axtarmaq üçün gəldik ki, fitnələr onun əli ilə sönəcək. Konstantiniyyə (İstanbul) onunla fəth ediləcək. (Yəni hz. Mehdi (ə.s) mənən könülləri fəth edəcək, böyük mədəni və elmi təsir yaradacaq) Biz onu adı ilə, anasının, atasının adı ilə və ordusu ilə tanıyarıq..." (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 52)

Hz. Mehdinin (ə.s) zühurundan (ortaya çıxmasından) əvvəl bazar durğun olacaq, qazanclar azalacaq. (Qiyamət əlamətləri, səh. 148)

Hər kəs az qazancdan şikayət edəcək, pulları və var-dövlətləri üçün zənginlər hörmət görəcəklər. (Qiyamət əlamətləri, səh. 146)

Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 39-40)

## ƏXLAQİ TƏNƏZZÜL

Hazırda, yaşadığımız dövrdə dünyadakı xalqların sosial quruluşlarını təhdid edən çox böyük təhlükə var. Bu təhlükə insan bədəninin ölümə sürükləyən viruslara oxşar bir şəkildə gizli fəaliyyət göstərərək cəmiyyətləri dağılmağa məhkum edir. Bu təhlükə bir insan cəmiyyətini ayaqda saxlayan əxlaq dəyərlərinin pozulmasıdır. Eyni cinsdən olanların əlaqələrinin, pozğunluğun ticarətinin, evlilikdən kənar əlaqələrin, təcavüzlərin, pornoqrafiyanın, cinsi xəstəliklərin artması əxlaqi süqutun bəzi mühüm nişanələridir. Qeyd edilən bu məsələlər həmişə dünya ictimaiyyətinin gündəmindədir. İnsanların çoxu ətrafında baş verən təhlükəni dərk etmir və ya bunları sosial həyatın bir hissəsi kimi dəyərləndirərək bu qəflətin içinə düşür. Ancaq statistika təhlükənin ölçülərinin görünməmiş bir artımla hər gün daha da böyüdüyünü göstərir.

Cinsi xəstəliklərin artması bəşəriyyətin qarşısındakı problemlərin böyüklüyünü göstərən əsas meyardır. Ümumdünya Səhiyyə Təşkilatının (WNO) qeydlərinə görə, cinsi yollarla keçən xəstəliklər ən çox rast gəlinən xəstəlik qruplarından birini təşkil edir. Əldə edilən məlumatlar hər il təxminən 333 milyon yeni hadisənin meydana gəldiyini göstərir.[17] Bunlara əlavə olaraq QIÇS (AIDS) böyük bir problem olmaq xüsusiyyətini hələ də qoruyur. Ümumdünya Səhiyyə Təşkilatının statistik məlumatlarında bu günə qədər 18,8 milyon insanın bu xəstəlikdən həyatını itirdiyi bildirilir.[18] Adıçəkilən təşkilatın QIÇS-lə bağlı 2000-ci ilə aid raportundakı bu ifadələr məsələni çox yaxşı xülasə edir: "QIÇS sosial, iqtisadi və demoqrafik quruluşlar üzərindəki dağıdıcı təsiri ilə bənzərsiz bir bəladır".[19]

Qorxuducu inkişaf arasında homoseksualizmin yayılması da çox diqqətçəkəndir. Eyni cinsdən olan insanların bəzi ölkələrdə rəsmi olaraq evlənə bilməsi, evliliyin səbəb olduğu sosial haqlardan istifadə edə bilməsi, dərnək və partiyalar qurması, dünya səviyyəsində yayılmaları, müqəddəs inanclara qarşı gəlmələri, dini dəyərlərə qarşı savaş elan etmələri Peyğəmbərimizin (s.ə.v) dövründən bu günə qədər keçən 14 əsrlik müddət ərzində ancaq dövrümüzə məxsus olan hadisələrdir.

Günümüzdəki eynicinslilərin bu cürətliliyi və cəsarəti Lut xalqının başına gələnləri yada salır. Quranda bəhs edildiyi kimi, Allah hz. Lutun doğru yola dəvətinə azğınlıqla cavab verən Lut şəhərini və xalqını böyük bir fəlakətlə məhv etmişdir. Bu azğın cəmiyyətdən arxada qalanlar hələ də bir ibrət nümunəsi olaraq Lut gölünün sularının altında qalır.

Axırzaman cəmiyyətlərindəki əxlaqi pozuntuları təsvir edən hədislərin bugünkü dünyada tam mənası ilə aşkara çıxdığı açıq bir həqiqətdir. Pozğunluğun utanmağa və gizlənməyə ehtiyac qalmadan, açıq-aşkar edilməsinin qiyamətin bir əlaməti olduğu hədisdə belə bildirilmişdir:

"Pozğunluq aşkar edilmədən... qiyamət qopmaz". ("Ramuz əl-əhadis", 91/7)

Cəmiyyətlərdə evlilikdən kənar cinsi əlaqələrin yayılmasının bir işarə olduğu da Peyğəmbərimiz (s.ə.v) tərəfindən bu cür qeyd edilmişdir:

"Zinanın çoxalması qiyamətin əlamətlərindəndir". (Buxari, "Təcridi" 1/16)

Əxlaq dəyərlərinin, utancaqlıq duyğusunun zəifləməsi belə təsvir edilmişdir:

"Qiyamət yaxınlaşanda... həya kişinin qadınla yolun ortasında cinsi əlaqədə olacaq qədər aradan qalxar". ("Son zamanlarla bağlı hədislər", səh. 97)

Çox qəribədir ki, son dövrlərdə televiziya kanallarında gizli kamera ilə çəkilmiş pozğun görüntülər nümayiş etdirilir. Yollarda insanlarla qiymət danışan küçə qadınları hamının gözləri qarşısında, yolun ortasındaca, açıq-aşkar pozğunluq edirlər.

Burada hədisdə qiyamət əlaməti olaraq qeyd edilən bir hadisə də qeyd edildiyi kimi zühur etmiş və milyonlarla insana bu hadisə göstərilmişdir. Hadisələr göstərir ki, eyni cinsdən olan insanların adi bir həyat tərzi kimi qəbul edilməsi qiyamətdən əvvəlki dövrün əsas əlamətlərinin bir işarəsidir:

“Kişilər qadınlara bənzəyəcək, qadınlar kişilərə oxşayacaq”. (“Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri”, səh. 451)

“Kişilər kişilərlə, qadınlar da qadınlarla kifayətlənəndə... qiyamət yaxınlaşacaqdır”. (“Ramuz əl-əhadis”, 448/8; “Ölüm, qiyamət və diriliş, səh. 480)

## HAQQ DİNİN VƏ QURAN ƏXLAQININ TƏRK EDİLMƏSİ

Qiyamət əlamətləri ilə əlaqəli hədislər bizə bəhs edilən işarələrin baş verəcəyi dövrün müfəssəl şəkildə təsvirini təqdim edir. Peyğəmbərimizin (s.ə.v) sözlərindən aydın olur ki, axırzamanın birinci mərhələsi görünüşdə dinin prinsiplərinin yerinə yetirildiyi, ancaq həqiqətdə Allah`ın dininin və Quran əxlaqının haradasa tamamilə tərk edildiyi bir dövrdür. Aydın olan Quran ayələrinin görməzlikdən gəlindiyi, Allah`ın adından hökmlər verilən, dində ayrı-seçkiliyin baş alıb getdiyi, ibadətlərin başqalarına göstərmək üçün yerinə yetirildiyi, dinin mənfəət, qazanc məqsədi üçün və alət olaraq istifadə edildiyi bir dövrdür. İmanın elmə və tədqiqatlara deyil, təqlidçiliyə əsaslanması da bu dövrün bir xüsusiyyətidir. Bu dövrdə yalançı müsəlmanlar çoxluqda, həqiqi alimlər və səmimi müsəlmanlar isə azlıqdadır.

Peyğəmbərimiz (s.ə.v) tərəfindən günümüzdən 14 əsr əvvəl xəbər verilən və hamısı içində olduğumuz əsr də nöqsansız olaraq yaşanan əlamətlər bunlardır:

Quranda bildirildiyinə görə, Peyğəmbərimiz (s.ə.v) axirət günü öz xalqının Quranı tərk edilmiş (bir kitab) kimi tərk etdiyini (“Furqan”, 25/30) ifadə edəcəkdir. Hədislərdə və axırzamanda insanların Quranın rəhbər olduğu xüsusiyyətini unudacaqları və Qurandan uzaqlaşacaqları belə bildirilmişdir:

“İnsanlara bir vaxt gələcək ki, Qurani-kərim bir vadidə, insanlar başqa bir vadidə olacaqlar”. (“Son zamanlarla bağlı hədislər”, səh. 23)

“İnsanlara elə bir dövr gələcək ki, Qurani-kərimin ancaq rəsmi, İslamın ancaq adı qalacaqdır. Onlar İslamdan çox uzaq insanlar olduqları halda, islami adlarla adlandırılacaq, məscidlər gözəl göründüyü halda, hidayət yönündən xarab olacaqdır”. (“Son zamanlarla bağlı hədislər”, səh. 24)

“Cümə” surəsinin 5-ci ayəsində “Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan ulağa bənzərlər” təşbehi edilmişdir. Şübhəsiz ki, bu ayədə müsəlmanlar tənbeh edilir, eyni pis səhvə yol verməmələri üçün diqqətli olmalarının lazımlılığı xatırladılır. Çünki Quran nəsihət almaq və üzərində fikirləşmək üçün göndərilmiş bir kitabdır.

Peyğəmbərimiz (s.ə.v) Quranın oxunmasına baxmayaraq, içindəki elmi və hikməti üzərində düşünməmələrinin axırzamanın bir xüsusiyyəti olduğunu belə ifadə etmişdir:

Peyğəmbər (s.ə.v) belə buyurdu: “Elm insanlardan alınacaq”. Ziyad soruşdu: “Ey Allah`ın Rəsulu, biz Quranı oxuduq və oxuyuruq, xanımlarımıza və uşaqlarımıza da oxuduruq. Bu elm bizdən necə alınacaq?” Peyğəmbər (s.ə.v) belə cavab verdi: “Yəhudilərin Tövratı və xristianların İncili haqqında məlumatın yoxdurmu? Onlar da çox Tövrat və İncil oxumuşdular. Hanı, onlarda bundan bir şey qaldımı?” (“Ölüm, qiyamət və diriliş, səh. 483)

“Bundan sonra bəzi Quran oxuyan, lakin oxuduqları dillərində qalan, ürəklərinə gedib çatmayan insanların törəyəcəyi bir zaman gələcəkdir”. (“Son zamanlarla bağlı hədislər”, səh. 61)

“Ənam” surəsinin 26-cı ayəsində insanları Qurandan uzaqlaşdıranlara diqqət çəkilir. Hədislərdən də azğın mütəfəkkirlərin, haqq və həqiqətdən uzaq sistemlərin qiyamətdən əvvəl insanları Allah`ın yolundan azdıracaq böyük fitnələr meydana gətirəcəyi aydın olur.

“Qiyamətdən əvvəl qaranlıq gecələr kimi fitnələr var”. (“Ramuz əl-əhadis”, 121/5)

“Qiyamətə yaxın dövrdə qaranlıq gecələrin hissələri kimi qarışıqlıqlar olacaq. Bu qarışıqlıqlar içində adam səhər mömin olub axşam kafir olacaq, axşam mömin olub səhər kafir olacaq”. (“Quran və sünnədə qiyamət və axirət”, səh. 155)

Haram və halal işləri Allah Quranda nöqsansız olaraq bildirdiyi halda, əslində, dində olmayan qayda-qanunların və hökmlərin ortaya çıxması da bir qiyamət əlamətidir...

“Haram olan şeylərin halal hesab edilməsi... qiyamət əlamətlərindəndir”. (“Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri, səh. 454)

Axırzamanda alim adlandırılan bəzi insanların həqiqətdə ikiüzlü və saxtakar olduqlarını Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) belə xəbər vermişdir:

“Axırzamanda qurd oxuyanlar olacaqdır. Kim həmin dövrə yetişərsə, şərlərindən Allah`a sığınsın. Onlar çox iylənmiş insanlardır. Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya və təkəbbürdən utanmayacaqlar”. (“Ölüm, qiyamət və diriliş, səh. 470)

“Alimlər elmi ancaq pul qazanmaq üçün öyrənəndə... dini dünya mənfəəti əvəzində satanda... hökmü satanda... qiyamət yaxınlaşacaqdır”. (“Ölüm, qiyamət və diriliş, səh. 480)

“Axırzamanda elə insanlar çıxacaq ki, dinlərini dünya mənfəətləri əvəzində satacaqlar. Bunlar yumşaq görünmək üçün qoyun dərisinə bürünəcəklər, dilləri şəkərdən şirin, lakin ürəkləri qurd ürəyi kimi qatı olacaqdır”. (Tirmizi, “Zühd ”, 60)

İslamın qayda-qanunlarına lazım olan hörməti və diqqəti göstərməyən, dini şəxsi mənfəətlərinə uyğun olaraq vasitə kimi istifadə etməkdən çəkinməyən insanların vəziyyətindən də belə bəhs edilmişdir:

“Ümmətimin axır dövrlərində məscidlərini bəzəyib ürəklərini xarab saxlayan, paltarını qoruduğu qədər dinini qorumayan, dünya işlərinin yolunda getmək uğrunda dinini vasitə etməyə fikir verməyən bəzi insanlar törəyəcək”. (“Son zamanlarla bağlı hədislər”, səh. 25)

Yaxşılığın tövsiyə edilməsi və pisliyin qarşısının alınması Allah`ın vacib bir əmri olduğu bilindiyi halda, onun yerinə yetirilməməsi də qiyamətin yaxınlaşmasının bir işarəsidir:

“Yaxşılıq tərk edilib əmr edilməyəndə, pislik edilib qarşısı alınmayanda... qiyamət yaxınlaşacaqdır”. (“Ölüm, qiyamət və diriliş, səh. 480)

“Qiyamət yaxınlaşır, xeyirli işlər azalır”. (“Qiyamət əlamətləri, səh. 264)

Səmimi müsəlmanların günahkarların təzyiqi altında zəifləməsinin qiyamətin bir əlaməti olduğu hədisdə belə bildirilmişdir:

“(Qiyamətin bir əlaməti) məscidlərin içində günahkarların səslərinin yüksəlməsi və günahkarların əmr etdiklərini yerinə yetirən səmimi möminlərin üzərində qalib gəlib onlara hökm etmələridir”. (“Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri”, səh. 450)

Peyğəmbərimizin (s.ə.v) verdiyi bir xəbər də axırzamanda həqiqi möminlərin sayının hardasa yox deyiləcək qədər az olmasıdır: “İnsanlara elə bir zaman gələcək ki, məscidlərdə yığışıb namaz qılarlar. Ancaq aralarında mömin olmaz”. (“Son zamanlarla bağlı hədislər”, səh. 17)

Səmimi möminlərin inancını gizlətməsinin və ibadətlərini gizli davam etdirməsinin hədisdəki təsviri belədir:

“Bu gün sizin aranızda münafiqlərin gizli yaşadıqları kimi bir dövr gələcək ki, mömin olanlar da digərlərinin arasında gizli olaraq dini həyatlarını davam etdirməyə çalışarlar”. (“Son zamanlarla bağlı hədislər”, səh. 9)

Məscidlərin ancaq yol kimi istifadə edilən məkanlara çevrilməsinə işarə verən bir hədisdə deyilir:

“Məscidlər namaz qılınmayıb gəlib-gedilən bir yol halına gəldiyi... bir zaman gəlməyənə qədər qiyamət qopmaz”. (“Son zamanlarla bağlı hədislər”, səh. 87)

Axırzamanda Quranı Allah`ın razılığını qazanmaq üçün deyil, qazanc əldə etmək üçün oxuyan insanların da ortaya çıxacağı hədisdə belə qeyd edilmişdir:

“Kim Quran oxuyarsa, (mükafatını) Allah`dan istəsin. Çünki son dövrlərdə Quran oxuyub (mükafatını) insanlardan istəyən bəzi insanlar törəyəcək”. (“Son zamanlarla bağlı hədislər”, səh. 9)

Quranın ancaq həzz almaq üçün, adətən, bir mahnı kimi oxunmasına da bir işarə edilib:

“Qurani-kərimin mahnı oxunduğu kimi oxunub həzz alındığı, hətta insan alim olmadığı halda, bu cur oxuduğuna görə etibar gördüyü vaxt...” (“Son zamanlarla bağlı hədislər”, səh. 31)

Müsəlman olaraq tanınan bəzi şəxslərin fərqli bir qədər (tale) anlayışına malik olması, bəzilərinin də ulduzların gələcəklə bağlı xəbər verdiyinə inanması axırzamanın əlamətlərindəndir.

“Axırzamanda ümmətim haqqında ən çox qorxduğum... ulduzlara (inanmaq), qədəri yalan saymaq...” (“Ramuz əl-əhadis”, 1/1540)

Faiz Allah`ın haram olduğunu qəti olaraq bildirdiyi bir hərəkət olmasına baxmayaraq, onun açıq-aşkar tətbiq edilməsinin bir əlamət olduğu hədisdə belə bildirilmişdir:

“Qiyamətin əlamətlərindəndir... faizin aşkar olması”. (“Ramuz əl-əhadis”, 448/8)

“İnsanlara elə bir dövr gələr ki, faiz yeməyən adam qalmaz. Onu yeməsə də, tozu mütləq bulaşar”. (“Ramuz əl-əhadis”, 360/8; 503/7)

Həcc ziyarətinin yerinə yetirilmə məqsədinin gəzmək, ticarət etmək, özünü başqalarına göstərmək və ya dilənmək olması axırzamanın başqa bir işarəsidir:

“İnsanlara elə bir dövr gələcək ki, zənginlər səyahət üçün, orta səviyyəli insanlar ticarət üçün, onların alimləri riya və göstəriş üçün, kasıbları isə dilənmək üçün həccə gedərlər”. (“Ramuz əl-əhadis”, 503/8)

## SOSİAL POZULMALAR

Hazırkı insanların qarşılaşdığı əsas problemlərdən biri də cəmiyyətin əsasını təşkil edən sosial quruluşlarındakı pozulmalardır. Cəmiyyətdəki zəiflik özünü müxtəlif şəkillərdə büruzə verir. Ailələrin dağılması, boşanmaların sayının artması və kəbinsiz körpələr ailə quruluşundakı zəifliyin təbii nəticəsidir. Problemlər, narazılıq, narahatçılıq, qorxu və xaos insanların çoxunun həyatını sanki darmadağın edir. Mənəvi boşluq içində olan insanlar bunların səbəblərini axtararkən spirtli içki və narkotik maddələr bataqlığına düşür və ya qaranlıq yollara gedir. Bunun həlli yolunun olmadığını düşünən bəzi insanlar da intiharı axırıncı çarə olaraq qəbul edirlər. Cəmiyyətdəki əxlaq normativlərinin zəifləməsinin mühüm göstəricilərindən biri də qanunlara qarşı çıxma hallarının çoxalmasıdır. Cinayətlərin nisbətindəki artım da mütəxəssisləri çaş-baş salmışdır. Birləşmiş Millətlər Təşkilatı Beynəlxalq Cinayətlərin Qarşısını Almaq Mərkəzinin hazırladığı “Universal cinayət və ədalət raportu”nda bütün dünya ölkələrinə şamil olan bu məlumatlar mövcuddur: cinayətlərin nisbətindəki artım 1980-ci illərdə olduğu kimi, 1990-cı illərdə də böyük olmuşdur. Dünyanın harasında olursa-olsun, beş illik bir mərhələdə böyük şəhərlərin əhalisinin 2/3 hissəsi cinayət sayılan davranışlara ildə ən azı bir dəfə hədəf olur.

Cahanşümul olaraq ciddi cinayətlərə (soyğunçuluq, cinsi təcavüz zəminindəki cinayətlər, hücum) hədəf olmaq nisbəti 1/5-dir. Bölgə fərqi olmadığı halda, gənclərin kateqoriyasındakı mülkiyyətə qarşı olan cinayətlər və terror cinayətlərinin hər ikisi iqtisadi çətinliklərlə əlaqəlidir. Son illərdə qeyri-qanuni narkotik maddə növlərinin sayı çoxalmış və növləri da artmışdır.[20]

Qeyd edilən bu hadisələrdə, əslində, təəccüblü bir şey də yoxdur. Belə bir sosioloji vəziyyətin səbəbləri Quranda keçmiş millətlərlə bağlı hekayətlərdə açıq şəkildə bəhs edilir. Sosial əxlaq pozuntuları və buna bağlı olaraq ortaya çıxan hər cür problemlər insanların

Allah`ı və yaradılışlarının məqsədini yaddan çıxarmasının, haqq dindən və mənəvi dəyərlərdən uzaqlaşmasının nəticələridir.

Cəmiyyətdəki dağıntının ünsürləri həmçinin Peyğəmbərimizin (s.ə.v) 14 əsr əvvəl xəbər verdiyi, günümüzdə də nöqsansız olaraq ortaya çıxan inkişafdır. Hz. Muhəmmədin (s.ə.v) "insanların ixtilaf və ictimai (sosial) sarsıntılar içində olduqları zaman" ("Ramuz əl-əhadis", 7/7) olaraq bizə tərif etdiyi axırzamanın ilk dövrü ilə əlaqəli hədislər bu cürdür.

Hədislərdən aydın olur ki, cəmiyyətdəki pis insanların çoxalması, etibarlı olduğu güman edilən bəzi insanların, əslində, yalançı və yalançı kimi tanınan bəzi insanların isə həqiqətdə etibarlı insan olduğu axırzamanın bir xüsusiyyətidir:

"İnsanların üzərində aldadıcı illər gələcək. O illərdə xainə etimad ediləcək, dürüst adam xain sayılacaq". ("Ölüm-qiyamət və diriliş", səh. 476)

"Pislərin çoxaldıqca çoxalması, yalançıların doğru qəbul edilib doğruların yalançı sayılması, xainlərin etibarlı, etibarlı insanların xain sayılması... qiyamətin əlamətlərindəndir". ("Son zamanlarla bağlı hədislər", səh. 92)

"Dünyada alçaq oğlu alçaqlar insanların ən bəxtəvəri olana qədər qiyamət qopmayacaqdır". (Tirmizi, "Fitən", 37)

Dinimizin qayda-qanunlarına uyğun əldə edilmiş qazancla etibarlı insanların azalacağı hədisdə belə bildirilmişdir:

"Axırzamanda ümmətim arasında ən az olacaq şey halal pul və etibar edilən yoldaşdır". (Suyuti, "Camius-səğir", 2/71)

Həqiqi şahidliyin gizlənməsi, yalançı şahidliyin və böhtanın isə geniş vüsət alması da qiyamətin əlamətlərindəndir:

"Qiyamətdən əvvəl... yalançı şahidlik yayılar, haqqa şahidlik isə gizlənər". ("Ramuz əl-əhadis", 1/121)

"Böhtanın yayılması qiyamətin əlamətlərindəndir". ("Ölüm-qiyamət və axırzaman əlamətləri", səh. 450)

Cəmiyyətdəki yeganə üstünlük ölçüsünün zənginlik olması hörmətin insanın imkanına bağlı olmasının bir qiyamət əlaməti olduğu belə bildirilmişdir:

"Zənginə etibar edilib özündən daha üstün insanlar onun üçün ayağa qalxanda və ona salam verəndə... demək ki, qiyamət yaxınlaşmışdır". ("Ölüm-qiyamət və diriliş", səh. 480-481)

İnsanlar arasındakı sosial əlaqələrin pozulmasının da bir işarə olduğu hədislərdəki təsvirlərdən aydın olur:

"Salam xalqa deyil, xüsusi adamlara veriləndə... qədər qiyamət qopmaz". (Ölüm-qiyamət və axırzaman əlamətləri", səh. 470)

“İnsanın ancaq tanıdığı adamlara salam verməsi... qiyamətin əlamətlərindədir”. (“Ramuz əl-əhadis”, 121/4)

Vəzifənin, məsuliyyətin işin əhli olmayanlara verilməsinin nəticələri də aşağıdakı hədisdə belə vurğulanır:

“İş əhli olmayana veriləndə artıq qiyaməti gözlə!” (Zəbidi, “Təcridi-sərih”, 12/201)

Ailə, qohumluq və qonşuluq əlaqələrinin pozulması, fərdlər arasındakı sosial və mənəvi dəyərlərin itməsi bu dövrün başqa bir xüsusiyyətidir:

“İnsanın anasına üsyan etməsi, atasına əziyyət etməsi...” (Tirmizi, “Fitən ”, 38)

“Qiyamətdən əvvəl... qohumlarla əlaqələr kəsilir”. (“Ramuz əl-əhadis”, 448/7)

“Qonşuların arasında narazılıqların yayılması qiyamətin əlamətlərindəndir”. (“Son zamanlarla bağlı hədislər”, səh. 86)

Gənclərin hirsli olmaları, uşaqlarla yetkin insanların arasındakı sevgi və sayğı əlaqələrinin pozulması hədislərdə belə xəbər verilir:

“Böyüklər kiçiklərə mərhəmət göstərməyəndə, kiçiklər də böyüklərinə hörmət etməyəndə... uşaqlar hirsli olanda... qiyamət yaxınlaşacaqdır”. (“Ölüm, qiyamət və diriliş”, səh. 480)

Hədislər göstərir ki, ailə quruluşundakı pozulmaya uyğun olaraq boşanma və evli olmadıqları halda, doğulan uşaqların sayının artması da axırzaman cəmiyyətlərinin bir özəlliyidir.

“Boşanmaların çoxalması... qiyamət əlamətlərindəndir”. (“Ölüm-qiyamət və diriliş”, səh. 455)

“Qiyamət yaxınlaşanda... qanunsuz əlaqələrdən doğulan uşaqlar çoxalar”. (“Ramuz əl-əhadis”, 33/7)

Materialist fəlsəfəsinin və dünyagörüşlərinin təsiri ilə insanların axirəti yaddan çıxarmaları, çox böyük həvəslə dünyaya bağlanmaları qiyamətdən əvvəlki dövrün bir vəsfidir:

“İnsanlarda xəsislik və tamah çoxalacaqdır”. (Muslim, “İmarə”, 176; İbni Macə, “Fitən”, 24)

“Qiyamət yaxınlaşdı. Halbuki, insanlar dünyaya qarşı ancaq həvəslərini artırır, Allah`dan da uzaqlaşırlar”. (Suyuti, “Camius-səğir”, 2/57)

Bir-birinə qarşı qaba, söyüş və küfr sözlərlə səslənən insanların vəziyyəti hədisdə belə ifadə edilmişdir:

“Son dövrlərdə törəyən, bir-biri ilə qarşılaşanda salamlaşmaları lənətləşməkdən ibarət olan sərxoş və asi bir nəsil (ortaya çıxmayana qədər)...” (“Son zamanlarla bağlı hədislər”, səh. 54)

Bu dövrün başqa bir xüsusiyyəti də dedi-qodu və lağ etməyin böyük rəğbətlə qarşılanmasıdır:

“Dedi-qoduçuların, qeybətçilərin və lağ edənlərin çoxalması qiyamətin əlamətlərindəndir”. (“Son zamanlarla bağlı hədislər”, səh. 93)

Yaltaqlara cəmiyyət arasında etibar edilməsi də belə xəbər verilmişdir:

“Qiyamət yaxınlaşanda... həmin dövrün ən etibarlıları yaltaqlıq və ikiüzlülük edənlərdir”. (“Son zamanlarla bağlı hədislər”, səh. 97)

“Mal-qaranın dilləri ilə yalayaraq yedikləri kimi dolanışıqlarını dilləri ilə təmin edən bəzi insanlar ortaya çıxmayana qədər qiyamət qopmaz”. (“Son zamanlarla bağlı hədislər”, səh. 101)

Axırzamanda tez-tez rast gəlinən bir vəziyyət də ticarət həyatında saxtakarlığın və rüşvətin adi hala gəlməsidir:

“Qiyamət yaxınlaşanda... ölçü və tərəzilərdə hiylə edilər”. (“Ramuz əl-əhadis”, 33/7)

“Rüşvətlərin alınması... qiyamətin əlamətlərindəndir”. (“Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri”, səh. 454)

Peyğəmbərimiz (s.ə.v) axırzamanda cinayətlərin artımını belə bildirmişdir:

“Cinayətlər artmadıqca... qiyamət qopmaz”. (“Ölüm-qiyamət və diriliş”, səh. 468)

## ELM VƏ TEXNOLOGİYA

Bəlli olduğu kimi, hz. Muhəmməd (s.ə.v) günümüzdən 14 əsr əvvəl yaşamışdır. Tarixi mənbələr ərəb cəmiyyətinin Quranın təbliğ edildiyi dövrdə kainat və təbiət üzərində hər hansı bir araşdırma apara biləcək texnologiyaya sahib olmadığını göstərir. Qeyd etdiyimiz bu ifadələrin mənası budur ki, Peyğəmbərimizin (s.ə.v) yaşadığı dövrlə əsrimizin elm və texnologiya səviyyəsi arasında müqayisə edilə bilməyəcək bir fərq var. Əslində, bu fərqlər XX əsrin əvvəli ilə XXI əsrin başlanğıcı arasında da böyükdür. Bundan bir neçə on il əvvəl adları da tələffüz edilməyən texnologiya sahəsindəki bəzi yeniliklərin bu günümüzün əvəzedilməz ünsürləri olması buna canlı dəlildir. Bu möhtəşəm fərqlərə baxmayaraq, Peyğəmbərimiz (s.ə.v) VII əsrdə gələcəklə bağlı bəzi xəbərlər vermişdir. Sonrakı səhifələrdə də axırzamandakı elm və texnologiya şəraitini təsvir edən hədislər qeyd ediləcək, Peyğəmbərimizin (s.ə.v) 14 əsr əvvəl verdiyi xəbərlərin günümüzdə eynilə gerçəkləşdiyi göstəriləcəkdir.

### Tibb texnologiyası

Uzun müddət yaşamaq əsrlər boyu insanların əsas hədəflərindən biri olmuşdur. Bu yolda böyük əmək sərf edilmişdir. Mövzu ilə bağlı olaraq hz. Muhəmməd (s.ə.v) də axırzamandakı inkişafı xəbər verdiyi bir hədisində bunları söyləmişdir:

"Onun dövründə... ömürlər uzanacaqdır". ("Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər", səh. 43)

Peyğəmbərimizin (s.ə.v) verdiyi bu xəbərin üstündən 14 əsr keçmişdir. Araşdırmalar ötən bu dövrlər arasında ortalama yaş həddinin digər bütün dövrlərdən çox olduğunu açıq-aydın ortaya qoyur.

Hətta XX əsrin ortaları ilə axırları arasında da böyük fərqlər var. Məsələn, 1995-ci ildə anadan olmuş bir uşağın 1900-cü illərdə anadan olan başqa bir uşağa görə təxminən 35 il daha uzun yaşayacağı təxmin edilir.[21] Bu mövzudakı başqa mühüm bir misal da keçmişdə 100 ildən artıq yaşayan insanların çox nadir hallarda, günümüzdə isə çox olmasıdır.

BMT-nin Əhali Departamentinin mənbələrinə görə, son bir neçə ildə dünya əhalisi yüksək ölüm nisbətlərindən aşağı ölüm nisbətlərinə tərəf diqqətəlayiq bir keçid dövründədir. "Demoqrafik inqilab" adlandırılan bu inkişafın mərkəzində də yaşlıların say etibarı ilə və nisbətən artımı yer alır. Belə sürətli və irimiqyaslı bir inkişafın sivilizasiya tarixinin heç bir dövründə görünmədiyi də eyni mənbədə vurğulanır.[22]

Şübhəsiz ki, həyatdakı bu artım da səbəbsiz deyil. Tibb texnologiyasının inkişafı ilə bağlı olaraq səhiyyə xidmətlərindəki inkişaf insanların belə bir nemətə qovuşmasına imkan yaradır. Bundan əlavə, genetika elmindəki inkişaf və hələ də böyük sürətlə inkişaf edən Genom (DNT) proyekti tibb sahəsində yeni bir dövrü başladır. Bu inkişaf keçmiş dövrlərdə yaşayan insanların xəyallarına da gətirə bilməyəcəyi bir ölçüdədir. Bütün bunlara əsaslanaraq bunu söyləmək mümkündür: yaşadığımız əsrin insanları yuxarıdakı hədisin xəbər verdiyi uzun və sağlam həyat standartlarını əldə etmişlər.

## TƏHSİL

XX və XXI əsri keçmiş əsrlərdən ayıran mühüm bir xüsusiyyət də oxumaq və yazmaq nisbətlərində qeyd edilən inkişafdır. Keçmiş dövrlərdə oxumaq və yazmaq cəmiyyətin müəyyən bir hissəsinin sahib olduğu bir imtiyaz statusunda idi. XX əsrin sonlarına yaxınlaşanda isə başda UNESCO olmaq üzrə hökumət və təşkilatlar dünya miqyasında kampaniyalar başlatmışdı. Bu təhsil səfərbərliyi texnologiya yeniliklərinin də insanların xidmətinə verilməyə başlaması ilə birlikdə günümüzdə öz nəticələrini verir. UNESCO-nun 1997-ci ildə nəşr edilən raportuna görə, dünya əhalisinin 77,4 faizi oxuma və yazmağı bacarır.[23]

Şübhəsiz ki, bu rəqəm geridə qalan 14 əsrdəki ən yüksək nisbətdir. Həmçinin Peyğəmbərimizin (s.ə.v) hədislərində xəbər verdiyi axırzaman cəmiyyətlərinin bir xüsusiyyətidir:

"Qiyamət yaxınlaşanda... oxuma və yazmağı bacaranlar çoxalar". ("Son zamanlarla bağlı hədislər", səh. 93; "Ramuz əl-əhadis", 1/121)

## İNŞAAT TEXNOLOGİYASI

Peyğəmbərimizin (s.ə.v) xəbər verdiyi və içində yaşadığımız dövrün inkişaf etmiş texniki səviyyəsini təsvir edən bir işarə də yüksək binaların inşa edilməsidir.

"Hündür-hündür binalar inşa edilməyənə qədər... qiyamət qopmaz". ("Ölüm-qiyamət və diriliş", səh. 468)

"Bu hadisələr meydana gəlməyənə qədər qiyamət qopmayacaqdır: hündür binalar tikməkdə insanlar bir-biri ilə yarışacaq". (Buxari, "Fitən", 25; Əhməd bin Hənbəl, "Müsnəd", 2/313)

Memarlıq və mühəndislik tarixinə nəzər salanda görürük ki, hündür binalar XIX əsrin axırlarında tikilməyə başlamışdır. Texnologiyanın inkişaf etməsi, poladın geniş yayılması və elektrikli liftlərin istifadə edilməsi ilə göydələn adlandırılan tikililərin inşaatı da sürətlə artmışdır. Göydələnlər XX və XXI əsrin memarlığının mühüm bir hissəsi olmuş, günümüzdə də bir prestij simvolu halına gəlmişdir. Hədisdə bildirilən insanların yüksək binalar tikmək yarışı da ölkələrin daha hündür göydələnlər tikdirə bilmək üçün çox böyük bir rəqabət və yarış içinə daxil olması ilə tam şəkildə gerçəkləşmişdir.

## NƏQLİYYAT TEXNOLOGİYASI

Tarix boyu xalqların zənginliyi və gücü onların malik olduğu nəqliyyat texnikaları ilə birbaşa əlaqəli olmuşdur. Təsirli nəqliyyat sistemlərini quran cəmiyyətlər inkişaf mərhələlərini gerçəkləşdirmişlər.

Peyğəmbərimiz (s.ə.v) də axırzamanın xüsusiyyətlərindən bəhs edərkən nəqliyyatın inkişaf edəcəyini belə ifadə etmişdir:

"Bu hadisələr meydana gəlməyənə qədər qiyamət qopmayacaqdır: zaman qısalacaq və vasitələrlə məsafələr azalacaq". (Buxari, "Fitən", 25; Əhməd bin Hənbəl, "Müsnəd", 2/313)

Yuxarıdakı hədisin son hissəsindəki mesaj olduqca aydındır. Axırzamanda yeni nəqliyyat vasitələri ilə uzaq məsafələrin qısalacağı xəbər verilmişdir. Yaşadığımız əsrin səsdən sürətli təyyarələri, qatarları və digər inkişaf etmiş nəqliyyat vasitələri ilə keçmiş dövrlərdə aylarla davam edən səyahətlər indi bir neçə saat ərzində, həm də daha etibarlı, rahat və komfortlu şəkildə həyata keçirilir. Hədisin işarəsi də bu cür həyata keçmişdir.

Günümüzün inkişaf edən texnologiya vasitələrinə Quranda bu cür işarə edilir:

“Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı (O yaratdı). Hələ sizin bilmədiyiniz neçə-neçə şeylər də yaradacaqdır”. (“Nəhl”, 16/8)

Yuxarıda qeyd etdiyimiz hədisin birinci hissəsindəki “zaman qısalacaq” ifadəsinə də bu yöndən baxmaq daha uyğundur. Aydındır ki, Peyğəmbərimiz (s.ə.v) axırzamanda işlərin başqa dövrlərə nisbətən daha tez müddətdə tamamlanacağını bu cür ifadə etmişdir. Həqiqətən də elmin inkişaf etməsi hər işin daha qısa müddət ərzində tamamlanacağına və çox daha mükəmməl nəticələr əldə edilməsinə imkan yaradır. Buna oxşar başqa bir hədis də bu fikrimizi təsdiq edir:

“Zaman qısalıb il ay, ay həftə, həftə gün, gün saat, saat da alovu yandıracaq qədər az bir zaman olmayana qədər qiyamət qopmaz”. (“Son zamanlarla bağlı hədislər”, səh. 95)

Məsələn, əsrlərdən əvvəl qitələr arasındakı xəbərləşmələr hazırda internet və nəqliyyat vasitələri ilə saniyələr içində tamamlanacaqdır. Keçmiş dövrlərin karvanları ilə aylarla davam edən səyahətlər nəticəsində əldə edilən şeyləri günümüzdə bir anda təmin etmək mümkündür. Çox deyil, daha bir neçə əsr əvvəl bircə ədəd kitabın yazılması üçün lazım olan müddət ərzində bu gün milyardlarla kitablar nəşr edilir. Təmizlik, yemək bişirmək, uşağa baxmaq kimi gündəlik işlər möcüzəvi texnoloji alətlərin yardımı ilə artıq çox vaxt aparmır. Bu misallar daha da çoxala bilər. Əlbəttə, burada üstündə dayanmaq lazım olan məsələ Peyğəmbərimizin (s.ə.v) VII əsrdə xəbər verdiyi qiyamət əlamətlərinin günümüzdə eyni ilə gerçəkləşməsidir.

Hədislərdə bildirilən başqa bir əlamət olan axırzamanda ticarətin yayılması (“Ölüm-qiyamət və diriliş”, səh. 473) da nəqliyyatdakı, kommunikasiyadakı inkişafa paralel olaraq tam mənası ilə həyata keçmişdir. İnkişaf etmiş kommunikasiya vasitələri dünyadakı bütün ölkələrin öz aralarında böyük ticarət əlaqələri təşkil etməsi üçün lazımi şəraiti daha sürətləndirmişdir.

## XƏBƏRLƏŞMƏ TEXNOLOGİYASI

Peyğəmbərimizin (s.ə.v) verdiyi xəbərlər arasında diqqəti çox çəkən bir məlumat da günümüzün xəbər ötürmək texnologiyalarına işarə edən hədislərdir. Möcüzə xüsusiyyətinə malik olan bu xəbərlərdən biri bu cürdür:

“İnsana qamçısının ucu danışmayana qədər... qiyamət qopmaz”. (“Ölüm-qiyamət və diriliş”, səh. 471)

Bu hədis diqqətlə incələnəndə içində gizlənən həqiqətlər başa düşülə bilər. Bilindiyi kimi, qamçı qədim dövrlərdə xüsusilə at, dəvə kimi minik heyvanlarına minərkən geniş istifadə olunan bir vasitədir. Hədisə diqqətlə baxanda Peyğəmbərimizin (s.ə.v) bir təşbehdən istifadə etdiyi ortaya çıxır. Günümüzdə yaşayan insanlara belə bir sual hazırlayaq: “Qamçıya oxşada biləcəyimiz və danışan nəsnə nədir?”

Bu sualın ən məntiqli cavabı ratsiya, mobil telefon və ya buna oxşar alətlər olacaqdır. Cib telefonu və ya peyk telefonu kimi simsiz (kabelsiz) danışıq alətlərinin çox az bir keçmişinin olduğunu nəzər alsaq, Peyğəmbərimizin (s.ə.v) 1400 il əvvəl verdiyi təsvirin də nə qədər hikmətli olması aydın olacaqdır.

Qiyamətdən əvvəlki dövrün bir hissəsində olduğumuza dair bir xəbər də beləliklə təcəlla etmişdir.

Peyğəmbərimizə (s.ə.v) aid başqa bir rəvayətdə də xəbərləşmə texnologiyasının inkişaf edəcəyinə belə işarə edilir:

"İnsana (öz) səsi danışmayana qədər... qiyamət qopmaz". ("Ölüm-qiyamət və diriliş", səh. 471)

Hədisdəki mesaj çox aydındır: insanın öz səsini eşitməyinin axırzamanın bir xüsusiyyəti olduğu bildirilir. Şübhəsiz ki, insan öz səsini eşidə bilməsi üçün xüsusilə səsini qeyd etməli və sonra da qulaq asmalıdır. Səsin qeyd edilməsi və reproduksiya texnologiyası da XX əsrin istehsalıdır. Bu inkişaf elmdə bir dönüş mərhələsi olmuş, xəbərləşmə və kütləvi informasiya vasitələrinin təşəkkülünə səbəb olmuşdur. Səsin qeyd edilməsi xüsusilə də kompyuter və lazer texnologiyalarındakı son inkişafla mükəmməl səviyyəyə çatmışdır.

Qısası, günümüzün elektrik alətləri, mikrofonları və səsucaldan cihazlar səsin qeyd edilməsinə və onun başqaları tərəfindən eşidilməsinə imkan yaradır və bizə yuxarıdakı hədisin verdiyi xəbərin ortaya çıxdığını göstərir.

Axırzamanı təsvir edən hədislərdəki xəbərləşmə texnologiyasına işarə edən xəbərlər yuxarıdakılarla məhdudlaşmır. Mövzu ilə bağlı digər hədislərdə də olduqca böyük marağa səbəb olan işarələr var:

"O günün əlaməti: səmadan (göy üzündən) bir əl uzanacaq və insanlar ona baxacaq və görəcəklər". ("Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər", səh. 53)

"O günün əlaməti səmada (göy üzündə) uzadılmış və insanların ona baxıb dayandığı bir əldir". ("Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər", səh. 69)

Yuxarıdakı hədislərdə bildirilən "əl"in bir məcazi mənasının olması aydın məsələdir. İnsanların baxanda görə biləcəyi bir nəsnənin keçmiş dövrlərdə elə də bir mənası olmamışdır. Ancaq bu günün dünyasının bir hissəsi olan televizor, kamera və kompyuter kimi cihazlar hədislərdə tərif edilən hadisəyə tam aydınlıq gətirir. Yəni hədisdə qeyd edilən "əl" ifadəsi "güc" mənasında işlədilmişdir. Göydən də dalğalar halında gələn görüntülərə, yəni televizora işarə edildiyi aydın olur.

Mövzu ilə bağlı digər rəvayətlər də çox maraqlıdır:

"Səmadan (göy üzündən) bir səs onu adı ilə çağıracaq və şərqdə, qərbdə... olan da bu səsi eşidəcəkdir..." ("Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər", səh. 54-55)

“Bu səs bütün yer üzünə yayılacaqdır. Hər xalq öz dilindən eşidəcəkdir”. (“Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər”, səh. 51)

“Səmadan (göy üzündən) bir səs gələcək ki, hamı bunu öz dilində eşidəcəkdir”. (“Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər”, səh. 37)

Bu hədislər bütün yer üzündə eşidiləcək və hər xalqın öz dillərində eşidəcəkləri bir səsdən bəhs edir. Bununla isə radio, televizor və buna oxşar xəbərləşmə vasitələrinə işarə edildiyi aşkar məsələdir. Hələ yüz il əvvəl insanların təsəvvür edə bilmədiyi bir inkişafı Peyğəmbərimizin (s.ə.v) 1400 il əvvəl xəbər verməsi də bir möcüzədir.

Bədiüzzaman Səid Nursi də bəhs edilən hədisləri izah etmiş, onların radio, telefon kimi xəbərləşmə cihazlarını möcüzəli şəkildə xəbər verdiyini bildirmişdir.[24]

Video görüntülü telefonlar, televizorlar, peyk və internet texnologiyaları kimi inkişaflar haqqındakı hədislərdən digəri isə belədir:

“Hz. Mehdi dövründə şərqdəki bir müsəlman qərbdəki müsəlman qardaşını görə biləcək, qərbdəki isə şərqdəkini görəcək”. (Bixarül-ənvar, cild 52, səh. 391)

“İşlər əhlinə (hz. Mehdiyə) əmanət edildiyində uca Allah onun üçün dünyanın ən alçaq yerini yüksəldəcək, ən yüksək yerləri də alçaldacaq. Belə ki, bütün dünyanı ovcunun içini gördüyü kimi görəcək. Sizdən kim ovcunda saç teli olsa onu görməz?” (Bixarül-ənvar, 5-ci cild, səh. 328)

Hədisdə axırzamanda yaşanacaq texnoloji inkişafa və görüntü köçürmə sistemlərinə diqqət çəkilmişdir. Video görüntülü telefonlar, televizorlar, peyk və digər xəbərləşmə sistemləri vasitəsilə insanlar artıq dünyanın hər hansı bir yerində olan dostları ilə rahat şəkildə görüşə bilirlər. Peyğəmbərimiz (s.ə.v) bu texnoloji inkişafı 1400 il öncə bizlərə xəbər vermişdir.

Bu dövrdə idarəçi mövqedə olan şəxslər xəbərləşməni və bilmədikləri mövzuları araşdırıb öyrənməyi əllərindəki ovuc içi kompyuterlər və kompyuterli telefonlarla reallaşdıracaqlar:

“İmam Cəfəri-Sadiqin (ə.s) oğlu Muhəmmədin nəqlinə görə, İmam əleyhissəlam belə buyurdu: “Qaim (ə.s) (hz. Mehdi) qiyam etdiyində hər ölkəyə bir səfir göndərəcək və hər bir səfirə belə buyuracaq: “Sənin əhdin əlindədir. Anlamadığın bir durumla qarşılaşsan və ya hökm etməkdə çətinlik çəksən, əlində yazılana əməl et...” (Şeyx Muhəmməd bin İbrahimi-Numani, Qeybəti-Numani, səh. 381)

Hədisdə hz. Mehdi (ə.s) dövründə idarəçi mövqeyində olan insanların xəbərləşmək, məlumat əldə etmək və ya bilmədikləri mövzuları araşdırıb öyrənmək məqsədilə ovuc içi kompyuterlərdən və kompyuterli telefonlardan yararlanacaqlarına diqqət verilmişdir. Bu gözəl dövrdə texnologiyanın üstün səviyyəyə çatacağı, insanların xəbərləri və öyrənmək istədikləri mövzuları əllərindəki ovuc içi kompyuterlərin, ya da kompyuterli telefonların köməyi ilə əldə edəcəkləri hədisdən aydın olur.

**Yağış bombası**

Müslimin Nüvvas bin Səmandan nəql etdiyi bir hədisdə belə deyilir:

"Göyə əmr edib yağış yağdıracaq..." (Qiyamət əlamətləri, 10-cu nəşr, səh. 219)

Hədisdə axırzamanda istənilən vaxt yağış yağdıran üsulların inkişaf etdiriləcəyi bildirilmişdir. Belə ki, dövrümüzdə bu üsullardan istifadə edilir. Yağış bombası bu cür tətbiq olunur:

Yağış bombası çox soyuq buludlara buz kristalları səpələyib yağış və qar şəklində yağıntının təmin edilməsidir. Soyuq buludlar tez-tez görünür. Bunlar 0°C-dən, hətta -40°C-dən aşağı olan çox kiçik su damcılarından ibarətdir. Belə bir buluda buz kristallarının atılması şərtləri dəyişdirir. Kristallar suya görə daha aşağı buxar təzyiqinə sahib olduqları üçün su damcılarının buxarlanmasına səbəb olur. Daha sonra bu nəmişlik buz kristallarının üzərində sıxlaşır. Beləliklə, buz kristallarının ölçüsü kiçilərkən davamlı artır. Bu şəkildə, bulud toxumlanması yüksək səviyyələrdə buz kristallarının əmələ gəlməsi ilə təbii şəkildə meydana gəlir. Buz kristallarının buluda düşməsi və ya atmosferdəki buzlaşmış tozların olması hadisəni tamamlayır. Süni bulud toxumlanması havadan və ya yerdən edilə bilər. Təyyarədən istifadə edib buludlara qatı karbondioksid (quru buz) dənələri səpələnir. İstiliyi çox aşağı olduğu üçün bu dənəciklərdə çoxlu miqdarda buz kristalları olur.

Yağış bombası son 60 il ərzində inkişaf etdirilmiş texnologiyadır. Dövrümüzdə ABŞ, İsrail, Kanada, Rusiya, Tailand, Fas, Avstraliya kimi ölkələrin də daxil olduğu 24 ölkə daha çox yağış əldə etmək üçün bu üsuldan istifadə edir.

**Süd istehsalında artım**

Peyğəmbərimizin (s.ə.v) axırzamanla bağlı hədislərində dəccalın çıxış əlamətlərindən biri olduğu bildirilən hadisələrdən biri də süd istehsalında artımdır. Yaşadığımız bu dövrdə heyvandarlıq sahəsindəki əldə olunan inkişaflar hədislərdə işarə olunan bu gəlir artımına səbəb olmuşdur. (Doğrusunu Allah bilir)

Bu hədis İbnil-Münadi Əlidən rəvayət etmişdir. Müslimin Nüvvas bin Səmandan nəql etdiyi bir hədisdə belə deyilir:

"Gəlib bir çox insanları dəvət edəcək, onlar da ona inanacaqlar... Göyə əmr edib yağış yağdıracaq... Yerə əmr edib əkin bitirəcək... Heyvanlarını da artıracaq... Və onların südünü çoxaldacaq". (Qiyamət əlamətləri, 10-cu nəşr, səh. 219)

Dövrümüzdə yaxınlarda istifadə edilməyə başlanılan heyvan populyasiyasına süni toxumlama tətbiq edilməsi, embrion nəqli və heyvan keyfiyyətinin artırılması Hollandiya və Belçika başda olmaqla, bütün ölkələrdə süd istehsalında böyük artıma səbəb olmuşdur. Məsələn, Hollandiyada bir inəkdən alınan südün miqdarı orta hesabla 35 litrə çatıb. Hətta gündəlik 53 litr süd verən inəklər də vardır.

**Xəzinə detektoru**

Axırzamanı, dəccalın çıxışını və xüsusiyyətlərini izah edən hədisi-şərifdə də dəccalın bir binanın yanından keçərkən bu binanın altında gizli olan xəzinəni xəbər verdiyi bəhs edilir:

"(Dəccal) dağılmaqda olan xarabalığın yanından keçərkən: "Altındakı xəzinəni çıxart!" –deyə əmr edəcək, həmin an dəfinə meydana çıxacaq..." (Qiyamət əlamətləri, səh. 219)

Bildiyimiz kimi, dövrümüzdə yerin altındakı metalları müəyyən edən, dəyərli və dəyərli olmayan metalları və metal ərintilərini bir-birindən ayıran detektorlardan geniş istifadə edilir. Bu detektorlar sayəsində bir binanın, dağıntının və ya torpağın altında basdırılmış metal olub-olmadığı dərhal aydın olur. Basdırılmış qızıl, gümüş, mis, bürünc kimi metalların yerlərini asanlıqla müəyyən edilməsini təmin edən bu detektorlar mühəndislikdə, tikintidə, hərbdə tez-tez istifadə edildiyi kimi, bəzi insanlar tərəfindən xəzinə detektoru kimi də istifadə edilir.

Yuxarıdakı hədisdə xəzinə detektoru kimi bir alətin istifadəsinə işarə edilmiş ola bilər. Bu yolla, çökməkdə olan bir binanın altında xəzinə olduğu müəyyən edilmiş və bu xəzinə yer üzünə çıxarılmış ola bilər. (Doğrusunu Allah bilir)

**Tral ovçuluğu**

"Onun (dəccalın) heyrətləndirən işlərindən biri də budur: gündə üç dəfə dənizə girəcək. Əllərinin biri uzundur. Həmin əlini dənizin dibinə dayayacaq. Digər əli ilə istədiyi balıqları tutub çıxardacaq..." (Əbu Nuaym Hüzeyfədən (r.ə) nəql edilmişdir)

Peyğəmbərimizin (s.ə.v) hədislərində axırzamanda dəccalın dənizin dibinə uzanıb dərinliklərdəki balıqları tutub çıxaracağına işarə edilmişdir. Dövrümüzdə su məhsulları ovçuluğunda istifadə edilən tral torları hədisin işarəsinə tam olaraq uyğun gəlir (ən doğrusunu Allah bilir). Tral torları ilə ovçuluq bir çox növün eyni anda ovlandığından multi ovçuluq kimi də adlanır.

Tral toru papaq formasında böyük bir torbaya bənzəyir və ağzı təxminən 30 metr genişliyindədir. Tor atılarkən ağzını açıq tutmaq üçün hər iki yanına taxta lövhələr yerləşdirilir. Qapı deyilən bu taxta lövhələr polad məftillərlə tral qayığına bağlanır. Dənizin dibinin kələ-kötür olmadığı yerlərdə dib balıqlarını ovlamaq üçün, adətən, dib tralından istifadə edilir. Tral gəmisindən dənizə atılan tral toru gəmi ilə sürüklənir və tor dənizin dibindəki balıqları toplayır. Bu, 1,5-3 saata qədər çəkir. Sonra tor kranla yuxarı çəkilir və içindəki balıqlar gəmiyə boşaldılır. Balıqlar təmizlənib yuyulduqdan sonra, gəminin anbarında buzların arasına basdırılaraq saxlanılır. Bəzi böyük və inkişaf etmiş tral gəmilərində balıqlar təmizləndikdən sonra dondurulur. Bu cür gəmilər daha uzun müddət ov edə bilir.

**Günəş ocaqlarının kəşf edilməsi**

"Havada uçan quşu tutub həmin an günəşin altında qızardacaq". (Qiyamət əlamətləri, 8-ci nəşr, türkcəyə tərcümə: Naim Ərdoğan, Pamuk nəşriyyat, səh. 216)

Peyğəmbərimizdən (s.ə.v) rəvayət edilən bu hədisdə dəccalın dövrü ilə bağlı ovlanan canlının olduğu yerdə dərhal bişirilib yeyilməsinə diqqət çəkilmişdir. Təsvirdəki digər xüsusiyyət isə bu hadisənin günəşli yerdə olmasıdır. Bu açıqlamada dövrümüzün texnologiyası ilə istifadə edilən günəş ocaqlarına diqqət çəkilir. (Doğrusunu Allah bilir)

Dövrümüzdə LPG, təbii qaz, elektrik, odun və kömürün yerinə alternativ olaraq istehsal edilən günəş ocaqları sayəsində günəşin altında ət məhsullarının bişirilməsi mümkündür.

Günəşdən gələn istilik, şəkildə gördüyümüz kimi, iç üzü parlaq olan plitələr sayəsində ocağa yönəlmişdir. Ocağın ortasına yerləşdirilən yemək əks etdirilən günəş şüalarından gələn yüksək temperatur sayəsində bişir. (Emily Krone, "Elburn-made solar ovens give hope to many Third World", Daily Herald, 26 Sentyabr 2004, ss. 1, 3)

Axırzamanla əlaqəli bu təriflər dövrümüzə baxan yönləri ilə çox düşündürücüdür.

**Duman buludları**

"Dəccal: "Mən aləmlərin Rəbbiyəm... Bax, bu günəş mənim iznimlə seyr edir, istəyirsinizsə, onu həbs edim", -deyəcək. "Yaxşı, həbs et görək", -deyə söhbət olacaq. Bundan sonra, günəşi həbs edəcək, bir günü bir ay kimi, bir həftəni də bir il kimi edəcək". (Nuaym bin Həmmad və Hakim bin Məsuddan (r.ə) rəvayət edilmişdir. Qiyamət əlamətləri, 10-cu nəşr, səh. 219-220)

Peyğəmbərimizin (s.ə.v) hədislərindən birində dəccalın günəşi həbs edəcəyinə işarə edilmişdir. Dövrümüzdə müxtəlif texniki üsullarla duman buludları əmələ gətirmək və bu buludlar vasitəsilə günəş işığını əngəlləmək mümkündür. Duman buludlarının əmələ gəlməsini təmin edən duman bombalarından 1-ci və 2-ci dünya müharibələrində istifadə edilmiş, bunun sayəsində bütün göy üzünü duman bürümüş, bu, görməni bütünlüklə əngəlləmiş və səmadakı təyyarələrin və paraşütlü əsgərlərin müəyyən edilməsinə mane olmuşdur. Bu, hədisdə işarə edilən günəşin həbs edilməsi, yəni günəşin işığının əngəllənməsi üçün istifadə edilən bir üsuldur və hədisə uyğun görünür. (Doğrusunu Allah bilir)

**Ərəb torpaqlarında çayların axması**

"Ərəb torpaqlarında çay və dərələr axmadıqca qiyamət qopmaz". (Ölüm, qiyamət və diriliş, İmam Şarani, səh. 471)

Bu hədisi-şərif bu gün Ərəbistan yarımadasında xüsusilə də İsrail və Səudiyyə Ərəbistanı kimi ölkələrdə suyun bolluca istifadə edilərək səhrada əkinçilik edilməsinə işarə edir.

## HZ. İSA VƏ YALANÇI PEYĞƏMBƏRLƏR

Tarix boyu bəzi yalançıların və saxtakarların peyğəmbərlik iddiası ilə ortaya çıxdığı məlum bir məsələdir. Bu cür saxtakarlar mənfəət əldə etmək üçün insanların təmiz inancından sui-istifadə etmiş və hər cür hiyləgərliyə əl atmışlar. Hədislərdə qiyamətdən əvvəl yalançı peyğəmbərlərin ortaya çıxacağına diqqət çəkilir.

“Hamısı da Allah`ın elçisi olduğunu iddia edən otuza yaxın yalançı gəlməyənə qədər qiyamət qopmayacaqdır”. (Tirmizi, “Fitən”, 43; Əbu Davud, “Məlahim”, 16)

Yuxarıdakı hədis bizə günümüzdəki vəziyyəti bildirir. Bəzi saxtakarlar müsəlmanların və xristianların inancından sui-istifadə edərək peyğəmbərlik iddiaları ilə ortaya çıxır və bəzən də böyük fəlakətlərə səbəb olurlar.

Mütəxəssislər məsih cərəyanlarının 1970-ci illərdən sonra ortaya çıxmağa başladığını və həmin illərdən sonra da sürətlə çoxaldığını ifadə edirlər.

Mövzu ilə əlaqəli aşağıdakı qeydlər yaddaşlarımızı canlandırmağa kömək üçün seçilmiş bir neçə nümunədir:

Britaniya Ensiklopediyasından: “Federal agentlər və məzhəb üzvləri arasındakı 51 günlük gərginlik faciə ilə nəticələndi. Məzhəbin Uako, Texas yaxınlarındakı təsisatları tamamilə yandı. 33 yaşı olan “Branch Davidians” hərəkatının lideri və Məsihi David Koreş də digər 74 nəfərlə birlikdə öldü”.[25]

“Time”dan: “Keçən həftə İsveçrədə və Kanadada Məsih adlandırılan Luis Couretin tərəfdarlarından və uşaqlarından ibarət 53 nəfər öldü. Bu iki ölkənin polisləri ölümlərin səbəbinin toplu intihar, qətliam və ya ikisinin bir qarışığı olub-olmadığını araşdırır”.[26]

Enkarta Ensiklopediyasından: “San Mun “Moon Unification” (“Birləşdirmə”) kilsəsinin qurucusudur. 16 yaşında ikən yuxuda İsa Məsihin Tanrının yer üzündəki krallığını qurmaq üçün Munun tanrı tərəfindən seçildiyini elan etdiyini iddia etmişdir. Bu kilsə 1990-cı illərin ortalarında 2 milyondan çox üzvünün olduğunu və 100-dən çox ölkədə təşkilatlandığını iddia etmişdir. Bu kilsənin üzvləri Munu İsanın xələfi olaraq qəbul edirlər”.[27]

“The Guardian”dan: “Ən pis məzhəb qətliamının qorxulu dəlili: Uqandada təzə qəbirlər tapıldıqca liderləri tərəfindən aldadılan fanatik bir məzhəbin 1000-ə yaxın tərəfdarının öldüyündən narahatlıq duyulur...”[28]

CNN-dən: “Elə bir hadisə idi ki, səbəb olduğu dəhşətli dalğaları dünyanın hər tərəfinə yayıldı... Ən yeni tarixin ən pis kütləvi intiharı. Bir məzhəbin üzvləri olan 900-dən çox insan ölmüş halda Cənubi Amerika meşələrindən tapıldı. Ölənlər Cim Consun tərəfdarları idi”.[29]

Gündəmdən düşməyən saxta peyğəmbərlərə Quran ayələrində diqqət çəkilmişdir. Bu mövzudakı bir ayədə belə buyurulur:

**“Allah`a iftira yaxan, özünə heç bir vəhy olunmadığı halda: “Mənə vəhy olunmuşdur, mən də Allah`ın nazil etdiyi kimi bir kitab endirəcəyəm”, -deyən şəxsdən daha zalım kim ola bilər? Kaş sən zalımları ölüm əzabı içində çabalayan, mələklərin də əllərini uzadıb: “Çıxarın canlarınızı! Siz bu gün Allah`a qarşı nahaq sözlər danışdığınıza və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə, alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!” -deyəndə görəydin!” (“Ənam”, 6/93)**

Ayənin davamında da bildirildiyi kimi, bu insanlar uydurduqları yalanın əvəzini mütləq görəcəklər.

Şübhəsiz, bu yalançı peyğəmbərlərin yalanlarının tamamilə aydın olacağı günlər yaxındır. Çünki Peyğəmbərimiz (s.ə.v) yalançılardan sonra hz. İsanın geri qayıdacağını da müjdələmişdir.

Hz. İsanın yer üzünə qayıtmasının Quranda xəbər verilməsindən, bunun həm müsəlmanlar, həm də xristianlar tərəfindən həsrətlə gözlənilməsindən əvvəlki səhifələrdə bəhs etmişdik. Hz. İsanın yenidən dünyaya gəlişi ilə əlaqəli Peyğəmbərimizin (s.ə.v) də çoxlu hədisi var. İslam alimlərindən Şövqani hz. İsanın qayıtması ilə bağlı 29 hədisin olduğunu, bu hədislərdəki məlumatların da səhv olmaq ehtimallarının olmadığını bildirmişdir. (Sünəni-İbni Macə, 10/338) (Mövzu ilə əlaqədar daha ətraflı məlumat üçün baxın: "Hz. İsa ölmədi", Harun Yəhya)

Qeyd edilən hədislərlə bizə çatan çox mühüm bir xəbər də var. Hz. İsanın qayıtması axırzamanın ikinci mərhələsi və qiyamətin böyük bir əlaməti olacaqdır. Bu mövzuda bəzi hədislərdə belə buyurulur:

"On böyük əlamət baş verməyənə qədər qiyamət qopmayacaqdır... İsa bin Məryəmin çıxması..." (Sünəni-İbni Macə, 10/293)

"Həyatım əlində olan Allah`a and olsun ki, Məryəmin oğlunun (İsa əleyhissalam) sizin içinizə ədalətli hakim olaraq enməsi, şübhəsiz ki, yaxındır". (Səhihi-Müslim, 6/532)

"İsa bin Məryəm adil bir hakim və ədalətli bir imam (dövlət başçısı) olaraq gəlməyənə qədər qiyamət qopmayacaqdır". (Sünəni-İbni Macə, 10/340)

Peyğəmbərimiz (s.ə.v) hz. İsanın gəlişindəki icraatlarını da belə ifadə etmişdir:

"İsa adil bir imam və hakim olaraq yer üzündə qırx il qalacaqdır". ("Quran və sünnədə qiyamət və axirət", səh. 134)

"İsa bin Məryəm gələr, qırx il Allah`ın kitabı və mənim sünnəmlə hökm edər, vəfat edər". ("Axırzaman Mehdisinin əlamətləri", səh. 92)

"İsa bin Məryəm mənim ümmətimin içində ədalətli bir hakim və (idarəçilikdə) adil bir imam olacaq, xaçı qırıb əzəcək və donuzu öldürəcəkdir... Qab su ilə dolduğu kimi, yer üzü sülhlə dolacaqdır. Din birliyi də olacaq, artıq Allah`dan başqasına ibadət edilməyəcəkdir". (Sünəni-İbni Macə, 10/334)

"O, (Hz.İsa) xaçı qıracaq, donuzu öldürəcək, cizyəni ləğv edəcək. Mal (o qədər) çoxalacaq ki, heç kim onu qəbul etməyəcəkdir". (Sünəni-Tirmizi, 4/93; "Quran və sünnədə qiyamət və axirət", səh. 133)

Belə aydın olur ki, hz. İsa qayıtmağı ilə yanaşı, təslis (üçləmə) kimi bütpərəst etiqadları, xaç, ruhbanlıq kimi batil davranışları, donuz əti yemək kimi haram feilləri aradan qaldıracaq, xristian dünyasını səhv yoldan qurtaracaq, bütün insanları Quranda bildirilən haqq dini və

üstün əxlaq modelini yaşamağa çağıracaqdır. Bu mərhələdə üzərində durmağın lazım olduğu bir nöqtə var. Ayə və hədislərdə hz. İsanın axırzamanda yer üzünə qayıdacağı heç bir şübhəyə yer verilməyəcək şəkildə müjdələnmişdir. Digər tərəfdən, günümüzdəki bəzi müsəlmanlar mövzu ilə bağlı açıq-aşkar olan dəlillərə əhəmiyyət vermir, bəziləri də hz. İsanın hz. Muhəmməddən (s.ə.v) sonra gəlməsinin mümkün olmadığını iddia edirlər. Bu cür fikirdə olan müsəlmanların mövzu ilə bağlı ayə və hədisləri səmimi və əvvəlcədən qəbul edilmiş heç bir mənfi düşüncəyə sahib olmadığı halda, tədqiq etmələri gərəkir. İkincisi, hz. Muhəmmədin (s.ə.v) son peyğəmbər olmaq həqiqəti ilə hz. İsanın yer üzünə qayıtmağı arasında heç bir ziddiyyət yoxdur. Çünki hz. İsa ikinci dəfə yer üzünə gələndə yeni bir din gətirməyəcək, Quranın və peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) təbliğ etdiyi haqq dinin hökmlərinə tabe olacaqdır. Böyük İslam alimlərindən biri olan İmam Rəbbani hz. İsanın Peyğəmbərimizin (s.ə.v) yoluna tabe olacağını (Məktubati-Rəbbani, 2/1309) bildirmişdir. İmam Nəvəvi hz. Muhəmmədin (s.ə.v) yolunu tətbiq etmək üçün gələcəyini (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 64) ifadə etmişdir.

Bu mövzuda Qazi İyaz da hz. İsanın İslamın hökmləri ilə hökm verəcəyini və xalqın tərk etdiyi dini tətbiqatları ilə yenidən canlandıracağını (Sünəni-İbni Macə, 10/338) söyləmişdir. Bərzəncinin kitabında isə bu həqiqət belə xəbər verilir: "Hz. Muhəmmədin (s.ə.v) şəriəti üzərinə hökm verəcək, özü peyğəmbər olduğu halda, peyğəmbərə tabe olacaq və Muhəmmədin (ə.s) ümmətindən olacaq..." (Qiyamət əlamətləri, səh. 243)

Keçən əsrin ən böyük alimlərindən olan Bədiüzzaman Səid Nursi də "Risaleyi-Nur" külliyatında bu mövzu ilə bağlı çox maraqlı açıqlamalar gətirmişdir. Bədiüzzamanın təhlillərinə görə, hz. İsa axırzamanda cismani olaraq yer üzünə qayıdacaq, maddiyyatçı və təbiətçi fəlsəfə cərəyanlarından törəyən inkarçılarla mübarizə aparacaq. Onun rəhbərliyində xristianlıq və müsəlmançılıq birləşərək güclü dinsizlik cərəyanını tamamilə aradan qaldıracaq. Xristianlığı boş inanclardan, azğınlıqlardan, xurafatlardan təmizləyəcəkdir. Xristianların Qurana tabe olmalarını təmin edəcəkdir. Bədiüzzaman Peyğəmbərimizin (s.ə.v) bu müjdələri hər şeyə gücü çatan Allah`ın sözünə əsaslanaraq verdiyini, buna görə də gerçəkləşəcəyinin mütləq olduğunu bildirmişdir.[30]

Bu yerdə ağlımıza gələn çox mühüm bir sual da hz. İsanı necə tanıyacağımızdır. Əlbəttə, Quranda bəhs edilən peyğəmbərlərin müştərək xüsusiyyətlərinə sahib olması onun ən aydın əlaməti olacaqdır. Bununla yanaşı, onun həqiqi İsa Məsih olduğunun mühüm bir fiziki əlaməti də var. Hz. İsa ikinci dəfə gələndə onu əvvəllər gördüyünü, tanıdığını, keçmişini bildiyini söyləyə biləcək heç kim ortaya çıxmayacaqdır. Onun fiziki xüsusiyyətlərini, simasını, ya da səs tonunu bilən bircə nəfər də olmayacaqdır. Dünyada bircə adam da "mən onu əvvəlcədən tanıyıram, filan vaxtı görmüşdüm, onun ailəsi və yaxınları filankəslərdir" kimi bir iddiada ola bilməyəcəkdir. Çünki onu tanıyan bütün insanlar bundan təxminən 2000 il əvvəl yaşamış və ölmüşdür. Anası hz. Məryəm, hz. Zəkəriyyə, onunla illərini keçirmiş həvariləri, dövrün yəhudi rəhbərləri və şəxsən hz. İsadan təbliğ alan insanların hamısı vəfat etmişdir. Dolayısilə, ikinci dəfə yer üzünə gələndə onun doğulmasına, uşaqlığına, gənclik illərinə və yetkinliyinə şahid olan bir insan da olmayacaqdır. Onun haqqında heç kim heç nə bilməyəcəkdir.

Kitabın əvvəlki hissələrində qeyd etdiyimiz kimi, hz. İsa Allah`ın "Ol!" əmri ilə atasız olaraq dünyaya gəlmişdir. Aradan əsrlər keçəndən sonra da onun bilinən heç bir qohumunun olmaması çox təbiidir. Allah hz. İsanın bu vəziyyətini Quranda hz. Adəmin yaradılışına oxşatmış və belə demişdir:

**"Allah yanında İsa da Adəm kimidir. Allah onu torpaqdan yaratdı. Sonra ona: "Ol!" -dedi, o da oldu". ("Ali-İmran", 3/59)**

Ayədə də bildirildiyi kimi, Allah hz. Adəmə: "Ol!" -demişdir və hz. Adəm yaradılmışdır. Hz. İsanın ilk yaradılışı da Allah`ın: "Ol!" -deməsi ilə baş vermişdir. Hz. Adəmin anası və atası yoxdur; hz. İsanın birinci dəfə dünyaya gəlməyində isə təkcə anası hz. Məryəm var. İkinci dəfə dünyaya gələndə isə onun anası da olmayacaqdır.

Şübhəsiz ki, bu vəziyyət tez-tez ortaya çıxan "saxta Məsih" təhlükəsini də tamamilə aradan qaldırır. Hz. İsanın yer üzünə yenidən gəlişində onun hz. İsa olduğuna şübhə ediləcək heç bir vəziyyət olmayacaqdır. Heç kim: "Bu adam hz. İsa ola bilməz", -deyə bilməyəcək və buna da heç bir səbəb tapmayacaqdır. Çünki hz. İsa dünyadakı bütün digər insanlardan seçilə biləcək bu çox mühüm xüsusiyyətlə, yəni yer üzündə onu tanıyan bircə adamın da olmaması ilə dərhal tanınacaq. Nəticə olaraq, bura qədər qeyd edilən məlumatlar hz. İsanın gəlişinə və edəcəkləri ilə əlaqəli Allah`ın vədlərinin çox yaxın olduğunu düşündürür. Şübhəsiz ki, bizim üzərimizə düşən vəzifə əsrlərdir həsrətlə gözlənən bu mübarək insanı ən gözəl şəkildə qarşılamağa hazırlaşmaqdır.

## QIZIL ƏSR

Hz. Muhəmmədin (s.ə.v) müfəssəl şəkildə təsvir etdiyi Qızıl Əsr və bu dövrün xüsusiyyətləri də qiyamətin mühüm əlamətlərindəndir. İslam alimləri bu dövrə cənnətə oxşayan xüsusiyyətlərinə görə Qızıl Əsr adını vermişlər. Hədislərdən aydın olduğuna görə, Qızıl Əsr axırzamanın ikinci dövründə yaşanacaqdır.

Bu müjdələnmiş xəbərin gerçəkləşəcəyi dövrün mühüm xüsusiyyətlərindən biri bolluq və zənginlikdir. Qeyd edilən bolluğun tarixdə bir bənzərinin olmadığı da hədislərdə xüsusilə qeyd edilmişdir:

"Mənim ümmətim həmin dövrdə elə bir rifaha qovuşacaq ki, o günə qədər onun oxşarını qətiyyən görməmişdir..." (Sünəni-İbni Macə, 10/347)

"O vaxt ümmətimin yaxşısı, pisi, hamısı da bənzərini görmədikləri nemətlərlə nemətlənər". ("Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman", səh.16)

Qeyd edilən dövrdəki zənginlik başqa bir hədisdə də belə təsvir edilmişdir:

"Onun dövründə yer üzü içindəki xəzinələri xaric edəcək". ("Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər", səh. 43)

Bu mövzuda digər hədislərdə də sıxıntı və darlıq illərinin qurtaracağı, ehtiyac içində olan insanların qalmayacağı, hətta insanların sədəqə verməyə kasıb adam tapa bilməyəcəkləri xəbər verilmişdir:

"Elə bir dövr gələcək ki, insan (ayırdığı) qızıl sədəqəsi ilə hər tərəfi gəzsə də, əlindəki sədəqəsini alacaq heç bir kasıb tapa bilməyəcək". (Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri, səh. 462)

"Şübhəsiz, o dövrdə mal çoxalıb su kimi axacaq. Heç kim özünə sığışdırıb onu qəbul etməyəcəkdir". (Ölüm-qiyamət-axirət və axırzaman əlamətləri, səh. 464)

"Qızıl əsr"in maraqlı bir xüsusiyyəti də dürüstlüyün və ədalətin yayılması olacaqdır. Sıxıntı, haqsızlıq və zülmlər yerini ədalətin, hüququn keçdiyi günlərə verəcəkdir. Hədislərdəki ifadə ilə desək, yer üzündə zülm və işgəncənin yerinə ədalət dolacaqdır ("Ramuz əl-əhadis", 7/7). Silahların susması, düşmənçiliyin, dava-dalaşların, sosial tənəzzülün qurtarması, insanlar arasında dostluq və sevgi bağının qurulması da bu dövrün bəzi xüsusiyyətlərindəndir. Müharibə sənayesinə xərclənən dəhşətli miqdardakı pul qida, səhiyyə, abadlıq, mədəniyyət sahələrinə və bütün insanların səadətini təmin etməyə istiqamətlənəcək və bu sahələrə sərmayə qoyulacaqdır.

Bu müjdələnmiş dövrün əsas xüsusiyyətlərindən biri də dinin özünə qayıtması və Peyğəmbərimizin (s.ə.v) dövründəki kimi yaşanması olacaqdır. Əslində, İslam dinində olmayan, sonradan uydurulmuş adətlər, hökmlər, xurafatlar aradan qaldırılacaqdır. Həqiqi dinin tətbiq edilməsi ilə müsəlmanların arasındakı ayrılıqlar bitəcəkdir.

Xülasə, Qızıl Əsr bolluq, xoşbəxtlik, əmin-amanlıq, sülh, səadət, zənginlik və rahatlıq şəraitinin hökm sürəcəyi, sənət, tibb, kommunikasiya, istehsal, nəqliyyat və həyatın bütün sahələrində dünya tarixində görünməmiş və yaşanmamış inkişafın olacağı, Quran əxlaqının yaşanacağı bir əsr olacaqdır.

(Mövzu ilə bağlı müfəssəl məlumatlar "Qızıl Əsr" adlı kitabımızda var)

## QIZIL ƏSRDƏN SONRA

Qurandakı hekayətləri oxuyarkən mühüm bir İlahi hökmün hər dövrdə qüvvədə qaldığını görürük. Allah`ın göndərdiyi elçini yalan sayan və ona qarşı müharibə elan edən cəmiyyətlər məhv edilmiş, elçiyə tabe olan insanlar isə haqq dinin gətirdiyi maddi bolluğu və mənəvi səadəti yaşamışlar.

Elçidən sonra gələn dövrdə isə bəzi cəmiyyətlər onlara aşkar təbliğ edilmiş olan haqq dini tez tərk edərək şirkə və inkara düşmüşlər, fitnə və fəsad çıxararaq, adətən, öz əlləri ilə öz aqibətlərini hazırlamışlar.

Qeyd edilən qayda, əlbəttə ki, axırzaman üçün də öz qüvvəsində qalacaqdır. Peyğəmbərimiz (s.ə.v) hz. İsanın ölümü və Qızıl Əsrdən sonra qiyamət saatının gələcəyini belə bildirmişdir:

"Ondan (hz. İsadan) sonra qiyamətin qopması an məsələsi olacaqdır". ("Ramuz əl-əhadis", 1/1336)

"Ondan (hz. İsadan) sonra qiyamət qopacaq". ("Ramuz əl-əhadis", 28/5948)

Şübhəsiz, axırzaman və Qızıl Əsr bəşəriyyətə axırıncı xəbərdarlığın tam mənası ilə olacağı dövrdür. Bəzi hədislərdə bu dövrdən sonra artıq dünyada xeyirli bir şey qalmayacağı vurğulanır. Belə aydın olur ki, hz. İsanın ölümündən çox qısa bir müddət sonra dünyanın bütün xalqları Qızıl Əsrin gətirdiyi maddi rifah şəraitində azğınlaşacaq, haqq dini tamamilə tərk edəcəklər. Qiyamət saatı da belə bir şəraitdə, qəfildən gələ bilər. Əlbəttə, ən doğrusunu Allah bilir.

## NƏTİCƏ:

Şübhə yoxdur ki, Allah zamandan və məkandan uzaqdır. İnsan isə zamana və məkana tabedir. Bu aydın olan həqiqət belə bir mənaya gəlir ki, bizim üçün keçmiş, indi və gələcək olanlar Allah dərgahında ancaq bir andır. Hər şey Onun dərgahında bircə anda olub qurtarmışdır. Allah dünyanın yaradılmasından qiyamətə qədər hər şeyi çox incə detallarına qədər nizamlamış, ən kiçiyindən ən böyüyünə qədər hər hadisə "Lövhi-məhfuz" adlı kitabda qeyd edilmişdir. Allah`ın yaratdığını qədər çərçivəsində hər hadisənin yeri və zamanı bütün təfərrüatı ilə müəyyən edilmişdir. Bu həqiqət ayədə "Hər bir xəbərin müəyyən bir vaxtı vardır və siz biləcəksiniz" ("Ənam", 6/67) şəklində ifadə edilir. Bu müddət elə qəti ölçülərlə müəyyən edilmişdir ki, nə bircə an gecikdirilə bilər, nə də bircə an qabağa salına bilər.

Əlbəttə, qiyamət əlamətləri və axırzamanla bağlı hadisələrin gerçəkləşəcəyi zamanlar da saniyəsinə qədər Allah`ın dərgahında qeyd edilmişdir. Səmimi olaraq Allah`a iman gətirən möminlər qədəri (taleyi) təqib etmələrinin fərqində olaraq əsrlər boyu qiyamət əlamətlərinin çıxışını böyük maraq və həyəcanla gözləmişlər. Ayə və hədislərdəki işarələrin üstündə dərin-dərin düşünmüşlər, axırzamanın ilk dövründəki fitnə və bəlalara qarşı hazır olmağa səy göstərmişlər. Bununla yanaşı, müjdələndikləri Qızıl Əsrdə yaşamağı da ürəkdən arzu etmişlər.

Əlinizdəki kitab boyu incələnən ayə və hədislər də bəhs edilən Allah`ın vədləri ilə əlaqəli bəzi həqiqətləri aydın şəkildə ortaya qoyur. İçində yaşadığımız əsr qiyamət əlamətlərinin böyük hissəsinin tam mənası ilə meydana gəldiyi bir dövrdür. Hazırkı dövr qeyd edilən işarələrin ardıcıllıqla və tam təsvir edildiyi şəkildə ortaya çıxmağa başlamasına, dünya tarixində oxşarı görünməyən inkişafın ilk dəfə yaşandığına şahid olur. Heç bir şübhə yoxdur ki, bunlar Peyğəmbərimizin (s.ə.v) dövründən sonra baş verən çox əhəmiyyətli hadisələrdir. İlahinin bu işarələrini əvvəlcədən qəbul edilmiş mənfi fikirlər əsasında dəyərləndirilməsi, qulaqardına vurulması və ya yalan hesab edilməsi isə bu cür düşünənlər üçün çox böyük itkidir.

Belə aydın olur ki, XXI əsr dünya tarixində yeni bir dövrün başlanğıcıdır.

Allah`ın vədi mütləq həqiqətdir. Onun vədlərini dəyişdirə biləcək və ya buna mane ola biləcək heç kim yoxdur.

Hər mövzuda olduğu kimi, bu məsələdə də ən hikmətli və ən gözəl söz Qurandadır. Allah belə buyurur:

**“Və de ki: “Həmd olsun Allah`a! O, öz ayələrini sizə göstərəcək, siz də onları görüb tanıyacaqsınız. Rəbbin etdiyiniz əməllərdən əsla xəbərsiz deyildir!”” (“Nəml”, 27/93)**

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah’ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah’ın ayrı-ayrı yaratdığına qarşı

çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün

qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verмədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri

sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç

bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

> “Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> “Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> “Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus, homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları,

qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir

zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə

əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni

yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**